# VENSİ CƏNUBİ QAFQAZA GƏTİRƏN PLANLAR

Cənubi Qafqazda yeni geosiyasi mühitin yarandığı artıq reallıqdır. Vaşinqtonda əldə edilən tarixi razılaşmalardan sonra yeni mühitdə qurulan əməkdaşlıq sisteminin moderatoru rolunda isə Donald Trampın rəhbərlik etdiyi ABŞ çıxış edir. Region dünyada təhlükəsiz və etibarlı ticarət zəncirinin ən mühüm halqalarından birinə çevrilir.

Donald Tramp bölgəyə ən çox inandığı və administrasiyada özündən sonra ikinci adam sayılan tərəfdaşını göndərir. "ABŞ-nin Vitse-prezidenti Jey Di Vens fevralda Vaşinqtonun Cənubi Qafqazda davam edən sülh səylərinin bir hissəsi olaraq Azərbaycan və Ermənistana səfər edəcək", - Tramp "Truth Social" sosial şəbəkəsində yazıb.



SƏHİFƏ 4-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



31 YANVAR ŞƏNBƏ 2026 № 04 (4255) Qiyməti - 60 qəpik www.kaspi.az



## ABŞ İRANA TƏZYİQLƏRİ ARTIRIR

ABŞ ilə İran arasında gərginlik pik həddə çatıb. Hadisələrin bədbin ssenari üzrə inkişafı daha çox bölgə dövlətlərini narahat etməkdədir. Türkiyə, Səudiyyə Ərəbistanı və digər körfəz ölkələri Trampı İrana hərbi müdaxilədən çəkindirməyə çalışır.

SƏHİFƏ 2-də



## PASİYENT NARAZIDIR, HƏKİM GƏRGİN

Tibb müəssisələrində pasiyentlərə qarşı həkimlərin, tibbi personalın kobud rəftarı və səhlənkarlıqları ilə bağlı silsilə şikayətlər gəlir. Belə durumlarda zərərçəkənlərin hüquqlarının qorunması üçün hansı vasitələrin olduğu maraq doğurur.

SƏHİFƏ 10-da



## UŞAQ QİDALARINDA GİZLİ RİSKLƏR

Dünyada uşaq qidalarının təhlükəsizliyi ilə bağlı narahatlıqlar yenidən gündəmə gəlib. Mütəxəssislər bildirirlər ki, risklər təkcə istehsalda deyil, daşınma və saxlanma mərhələlərində də yarana bilər.

SƏHİFƏ 11-də

İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİ DAVAM EDİR




# İQTİSADİ İNKİŞAFIN YENİ MƏRHƏLƏSİ BAŞLAYIR

Bu mərhələdə əsas prioritet qeyri-neft sektorunun inkişafıdır. Prezident İlham Əliyev də ilin ilk ayında sənaye və istehsal müəssisələrinin təməlini qoyub, açılışını edib.

### PREZİDENTİN AÇILIŞINI ETDİYİ MÜƏSSİSƏLƏR

Prezident İlham Əliyev Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun, "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib. Bundan əvvəl isə dövlət başçısı Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub.

### İQTİSADİ FƏALLIĞA HESABLANAN ADDIMLAR

Hazırda mövcud sənaye zonalarında 104 müəssisə fəaliyyətə başlayıb. İndiyədək sənaye zonalarına 7 milyard manatdan çox investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə 1,74 milyard manata yaxın investisiya yatırılacaq.

SƏHİFƏ 3-də

"Əsas çağırış insan kapitalının transformasiyasıdır"

## ZƏKA YÖNÜMLÜ CƏMİYYƏTƏ KEÇİD STRATEJİ SEÇİMDİR



XXI əsrdə güc artıq yalnız təbii sərvətlərdə deyil, insan beynində və ideyadan dəyər yaratmaq potensialındadır. Bu baxışdan çıxış edərək, Azərbaycanda zəka yönümlü cəmiyyət modelinə keçidin perspektivlərini öyrənmək üçün Vasif Eyvazzadə ilə söhbət etdik. O, ABŞ-də CCEI – Mədəniyyət və Təhsil İnstitutunun təsisçisi və rəhbəridir. Bu institut zəka yönümlü cəmiyyətin formalaşmasına xidmət edən düşüncə və təhsil platformasıdır.

SƏHİFƏ 8-9-da



## İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQDA YENİ HƏDƏFLƏR

Bakı-Təl-Əviv əməkdaşlığının mövcud durumu yüksək qiymətləndirilir. Gideon Saarın Azərbaycana səfərinin iki ölkə arasındakı əməkdaşlıq coğrafiyasının daha da genişləndirilməsinə mühüm töhfə verəcəyi proqnozlaşdırılır.

SƏHİFƏ 5-də



## KİNOMUZ ÜÇÜN YAŞIL İŞIQ?

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Mədəniyyəti-2040" Mədəniyyət Konsepsiyasında milli kinomuzla bağlı görüləcək işlər əksini tapıb. Kino adamları sənədi müsbət qiymətləndirirlər.

SƏHİFƏ 13-də



## FUTBOLUN DƏYİŞƏN YAŞ HƏDDİ

Müasir futbolda 40 yaşında futbolçu görmək artıq istisna hesab olunmamalıdır. Bu, atletin öz fiziki formasına sistemli yanaşmasının nəticəsidir. İdman elmi, tibbi imkanlar və peşəkar həyat tərzi birlikdə futbolçuların oynama müddətini uzadıb.

SƏHİFƏ 16-da



Kuba üçün "Venesuela ssenarisi"

SƏHİFƏ 7-də



Aqressiyanın iti ucu

SƏHİFƏ 6-da



Çoxuşaqlılıqdan azuşaqlılığa keçid

SƏHİFƏ 12-də



Bazarda bolluq, süfrədə darlıq

SƏHİFƏ 14-də



Saqqız seçimində keyfiyyət ön planda

SƏHİFƏ 15-də



## Prezident səfirlərin etimadnamələrini qəbul edib

Prezident İlham Əliyev ölkəmizə yeni təyin olunmuş səfirlərin etimadnamələrini qəbul edib.

Yunanıstan səfiri Maria K.Papakonstantinusla görüşdə hər iki ölkənin müxtəlif sahələrdə, o cümlədən bu gün qlobal təhlükəsizlikdə mühüm amil olan enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq etdiklərini deyən Azərbaycan Prezidenti gələcəkdə biznes nümayəndələri arasında daha çox təmasların olacağına ümidini ifadə edib.

İndoneziya səfiri Berlian Helminin etimadnaməsini qəbul edərkən dövlət başçısı İndoneziya Prezidenti ilə Davosda və Şarm Əl-Şeyxdə təmaslarını xatırlayıb, onu Azərbaycana rəsmi səfərə dəvət etdiyini bildirib. Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) bu qurumun təsis edilməsindən sonra üzv qəbul edilən ilk ölkə olmasının bizim üçün böyük şərəf olduğunu deyən Prezident İlham Əliyev bu məsələdə təşkilata üzv bütün dövlətlərə, o cümlədən İndoneziyaya minnətdarlığını ifadə edib. Dövlət başçısı bunu Azərbaycana olan hörmətin və qardaşlığın təcəssümü kimi qiymətləndirib.

Norveç səfiri Andreas Qaarderlə görüşdə dövlət başçısı Azərbaycanla Norveç arasında ikitərəfli əlaqələrin inkişafının önəminə toxunub. Əməkdaşlığın enerji sahəsi ilə başladığını deyən Azərbaycan Prezidenti mövcud münasibətlərin genişləndirilməsi baxımından yaxşı imkanların olduğunu vurğulayıb.

Avstraliya səfiri Salli-Annla görüşdə isə dövlət başçısı coğrafi baxımdan hər iki ölkənin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, iqtisadi-ticari, investisiya sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu deyib, siyasi əlaqələrin inkişafını məmnunluqla vurğulayıb.




# ABŞ İRANA TƏZYİQLƏRİ ARTIRIR

Tərəflər arasında gərginlik hər keçən gün artır. Xarici işlər naziri Ceyhun Bayramovun iranlı həmkarı Seyid Abbas Əraqçi ilə telefon danışığında Azərbaycanın ərazisindən və hava məkanından İrana qarşı hərbi əməliyyatların aparılması üçün istifadə edilməsinə imkan verilməyəcəyi xüsusi vurğulanıb.

ABŞ ilə qonşu İran arasında gərginlik özünün pik həddinə çatıb. Hadisələrin bədbin ssenari üzrə inkişafı daha çox bölgə dövlətlərini narahat etməkdədir. Xüsusilə də, Türkiyə, Səudiyyə Ərəbistanı və digər körfəz ölkələri ABŞ Prezidenti Donald Trampı İrana hərbi müdaxilədən çəkindirməyə çalışır. İranın cənub qonşumuz olması, həmçinin bu ölkədə çoxmilyonlu azərbaycanlıların yaşaması mövcud prosesi rəsmi Bakı üçün də ciddi narahatlıq mənbəyinə çevirib.

### BAKI TEHRANA TƏMİNAT VERDİ

Yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramov ilə iranlı həmkarı Seyid Abbas Əraqçi arasında telefon danışığı baş tutub. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Telefon danışığı zamanı İran ətrafında yaranmış vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə son gərginliyin narahatlıq doğurduğunu, bütün tərəflərin İranda və onunda ətrafında qeyri-sabitliyə səbəb ola biləcək addımlardan və ritorikadan çəkinmələrinin zəruriliyinin ölkəmiz tərəfindən hər zaman vurğulandığını bildirib. Mövcud problemləri yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyin vacib olduğu qeyd edilib. Azərbaycan Respublikasının onun hava məkanının və ya ərazisinin hər hansı dövlət tərəfindən qonşu İrana və ya hər hansı digər ölkəyə qarşı hərbi əməliyyatların aparılması üçün istifadə edilməsinə heç vaxt imkan verilməyəcəyi xüsusi vurğulanıb.

### NÜVƏ SİLAHLARINDAN İMTİNA VƏ ETİRAZÇILARI ÖLDÜRMƏYİ DAYANDIRMAQ

ABŞ Prezidenti Donald Tramp son günlərdə İran rəhbərliyi ilə əlaqə saxladığını bildirib. O, bunu jurnalistlərlə söhbətində deyib. D.Tramp Tehranı nüvə silahı hazırlamaqdan imtinanın vacibliyinə və iğtişaşlara qarşı qeyri-mütənasib güc tətbiq etməməyə inandırmaq üçün danışıqların davamında maraqlı olduğunu söyləyib. ABŞ Prezidenti İran hakimiyyəti ilə təmaslarının məzmununa da toxunub: "Mən onlara iki şey dedim: birincisi, nüvə silahlarından imtina edin və ikincisi, etirazçıları öldürməyi dayandırın". ABŞ lideri İran İslam Respublikasında baş verən etiraz aksiyaları zamanı minlərlə insanın öldürüldüyünü də vurğulayıb. "İrana doğru gedən çoxlu sayda böyük və güclü ABŞ Hərbi Dəniz Qüvvələrinin gəmiləri var. Onlardan istifadə etməsəydik, əla olardı", - deyə Tramp bildirib.



Donald Tramp



Məsud Pezeşkian

### İRANA MÜMKÜN HƏRBİ MÜDAXİLƏ VARİANTLARI

"ABŞ Prezidenti Donald Tramp Pentaqon tərəfindən İrana qarşı təklif edilən bir neçə hərbi ssenarini, o cümlədən reydlər və xüsusi təyinatlı qüvvələrin əməliyyatlarını nəzərdən keçirir. Lakin diplomatik həll yolu və Tehranla danışıqlar variantı da açıq saxlanılır". Bu barədə "The New York Times" Birləşmiş Ştatların rəsmilərinə istinadən məlumat yayıb. Xəbərə görə, Ağ Ev rəhbəri xüsusilə İrana hücumları, eləcə də nüvə və raket qurğularına daha böyük ziyan vurmağı nəzərdən keçirir. Ən riskli variantlar arasında 2025-ci ilin iyun ayında ABŞ-nin zərbələri zamanı zədələnən İranın nüvə proqramı qurğularını məhv etmək və xüsusi təyinatlı qüvvələrin gizli şəkildə yerləşdirilməsi də var.

Bundan əlavə, ölkədə xaos yaratmaq və rejim dəyişikliyinə yol açmaq məqsədilə İslam Respublikası rəhbərliyi ilə birbaşa əlaqəli qurğulara qarşı bir sıra zərbələr də nəzərdən keçirilir.

## PEZEŞKİAN: "İRAN ÖZÜNÜ MÜDAFİƏ ETMƏYƏ HAZIRDIR"

İran Prezidentinin mətbuat xidməti isə Məsud Pezeşkianın Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif və Qətər Əmiri Şeyx Təmim bin Həməd Al Tani ilə telefon danışıqlarının təfərrüatını açıqlayıb. Son regional hadisələrin müzakirəsi zamanı Məsud Pezeşkian gərginliyin azaldılması üçün diplomatik səylərin davam etdirilməsinin vacibliyini vurğulayıb. "Əgər ABŞ həqiqətən diplomatiya axtarırsa, təxribatçı addımlarını dayandırmalıdır. İranın seçimi ləyaqətli dialoq və diplomatiya yoludur, bununla belə ölkə özünü müdafiə etməkdən çəkinməyəcək", - deyə o əlavə edib.

Xatırladaq ki, 2025-ci il dekabrın 29-da Tehranda İran rialının kəskin dəyərdən düşməsi səbəbindən ticarətçilərin etiraz aksiyaları başlayıb. Narazılıqlar qısa müddətdə İranın əksər iri şəhərlərinə yayılıb. Bu etiraz aksiyaları zamanı minlərlə insan həlak olub.

# İQTİSADİ İNKİŞAFIN YENİ MƏRHƏLƏSİ BAŞLAYIR

Bu mərhələdə əsas prioritet qeyri-neft sektorunun inkişafıdır. Prezident İlham Əliyev də ilin ilk ayında sənaye və istehsal müəssisələrinin təməlini qoyub, açılışını edib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az




Azərbaycanda qeyri-neft sektorunun inkişafı bu il üçün də əsas prioritet istiqamətlərdən biri elan edilib. Neft ehtiyatlarının azalması fonunda iqtisadiyyatın şaxələndirilməsi mövcud iqtisadi artım dinamikasında müşahidə olunan tempi saxlamaq, makro və mikroiqtisadi sabitliyinin davamlılığını təmin etmək istiqamətində dövlət siyasətinin əsasını təşkil edir.

### PREZİDENTİN AÇILIŞINI ETDİYİ MÜƏSSİSƏLƏR

Bu yanaşma Prezident İlham Əliyevin ilin ilk ayında təməlini qoyduğu və açılışını etdiyi sənaye və istehsal müəssisələrinin dinamikasında da özünü göstərir. Dövlət başçısı yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun, "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib.

Bundan əvvəl isə Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə səfəri çərçivəsində Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub, Tərtər elektromexanika zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib. Göründüyü kimi, qeyri-neft sektorunun inkişafı ilə bağlı strategiya çoxprofilli olması və ölkənin ən müxtəlif regionlarını əhatə etməsi ilə seçilir.

Qeyd edək ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafının prioritet təşkil etməsi Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda çıxışları zamanı da əsas vurğulardan biri olub. Dünyanın sərmayə nəhənglərinin toplandığı Forum çərçivəsində dövlət başçısı bildirib ki, bərpaolunan enerji sahəsi, enerji toplanması qurğularının istehsalı, mədənçilik, süni intellekt və məlumat mərkəzləri xarici investisiyaların cəlb olunması üçün əsas hədəflərdir.

### İQTİSADİ FƏALLIĞA HESABLANAN SƏNAYE ZONALARI

Ölkə daxilində bu hədəflərə nail olmaq üçün mühüm addımlar atılmaqdadır. Ən mühüm layihələrdən biri müxtəlif bölgələri əhatə edən sənaye zonalarının yaradılmasıdır. Son məlumatlara görə, hazırda mövcud sənaye zonalarında 104 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 7 milyard manatdan çox investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə 1,74 milyard manata yaxın investisiyanın yatırılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək ümumilikdə 19,4 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 6,1 milyard manatlıq hissəsi ixrac olunub. Hazırda istehsal olunan məhsullar dünyanın 70 ölkəsinə ixrac edilir. Qeyd edək ki, sənaye zonaları biznes subyektlərinin innovativliyinin və istehsal səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan məhsul istehsalının təşviqində, ixrac potensialının genişləndirilməsində, eyni zamanda, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Hazırda ölkədə Sumqayıt, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" daxil olmaqla 8 sənaye parkı fəaliyyət göstərir. Naxçıvan Sənaye Parkının, eləcə də Gəncə şəhəri və Şəmkir rayonu ərazisində yeni Qərb Sənaye Parkının yaradılması istiqamətində işlər görülür.

## İXRACDA MÜSTƏQİLLİK TARİXİNİN ƏN YÜKSƏK SƏVİYYƏSİ







Bəs ümumi iqtisadi mənzərə necədir? Qeyri-neft sektoru ilə bağlı gözlənilənlər özünü doğruldurmu?

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ildə ölkədə 129,1 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,4 faiz çox ümumi daxili məhsul istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,6 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 2,7 faiz artıb.

2025-ci ildə Azərbaycanın qeyri-neft-qaz əmtəə ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 8,5% artaraq 3.628 milyard ABŞ dolları təşkil edib və müstəqillik tarixinin ən yüksək səviyyəsinə çatıb. Hesabat dövründə yeyinti məhsulları üzrə ixrac 18,4 faiz artaraq 1,2 milyard dollara bərabər olub. Ötən ilin yanvar-dekabr aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 57,4, meyvə-tərəvəz 27,4, alüminium və onlardan hazırlanan məmulatlar 24,2, pambıq iplik 19,3, kimya sənayesi məhsulları 8, bitki və heyvan mənşəli piylər və yağlar 2 faiz artıb. Hesabat dövrü ərzində aqrar məhsullar üzrə ixrac 26,7 faiz artaraq 1 milyard dollara, aqrar-sənaye məhsulları üzrə ixrac isə 314,7 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 18,9 faiz artaraq 1,3 milyard dollar təşkil edib.

### MÖVCUD VƏZİYYƏT VƏ PROQNOZLAR

Ölkənin ümumi iqtisadi mənzərəsi və gözlənilən inkişaf tempi ilə bağlı beynəlxalq proqnozlar da maraqlıdır.

"Fitch Ratings" agentliyinin proqnozlarına əsasən, 2026-2027-ci illərdə Azərbaycanda iqtisadi artım 3 faizdən aşağı səviyyədə qalacaq. 2025-ci ildə neft sektoru 2,7% zəifləyib, neftə əsaslanan qeyri-xammal iqtisadiyyatı isə 1,6% artıb. Bu isə ümumi iqtisadi artımın 1,4% təşkil etməsinə səbəb olub ki, bu göstərici hökumətin (3%) və "Fitch"in (1,8%) proqnozlarından aşağıdır.

"Moody's" reytinq agentliyinin son hesabatında isə qeyd olunur ki, Azərbaycanda həyata keçirilən islahatlar ölkənin iqtisadi və fiskal baxımdan karbohidrogen sektorundan asılılığının gözləniləndən daha əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxara bilər. "Moody's" vurğulayır ki, ölkənin reytinqin yüksəlməsinə təsir göstərə biləcək əlavə amillərə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin səmərəliliyi daxildir. Bu siyasət makroiqtisadi və büdcə göstəricilərinin neft qiymətlərinin dəyişkənliyinə həssaslığını azaltmaqla yanaşı, qlobal uzunmüddətli karbon keçidi ilə bağlı riskləri də zəiflədə bilər.

Göründüyü kimi, hazırda Azərbaycan növbəti iqtisadi inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələdə ölkənin iqtisadi siyasətinin əsasını isə qeyri-neft sektoru təşkil edəcək.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# VENSİ CƏNUBİ QAFQAZA GƏTİRƏN PLANLAR

Donald Tramp bölgəyə ən çox inandığı və administrasiyada özündən sonra ikinci adam sayılan tərəfdaşını göndərir. Məqsəd Bakı və İrəvanda sülh prosesini, eləcə də Zəngəzur dəhlizini müzakirə etməkdir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Cənubi Qafqazda yeni geosiyasi mühitin yarandığı artıq bir reallıqdır. Keçən il Vaşinqtonda əldə edilən tarixi razılaşmalardan sonra yeni mühitdə qurulan əməkdaşlıq sisteminin moderatoru rolunda isə Donald Trampın rəhbərlik etdiyi ABŞ çıxış edir. Cənubi Qafqaz dünyada təhlükəsiz və etibarlı ticarət zəncirinin ən mühüm halqalarından birinə çevrilir. Məhz bu amil beynəlxalq güclərin bölgəmizə olan marağını və həyata keçirilməsi planlaşdırılan layihələrdə rol almaq istəyini stimullaşdırır.

### NƏZƏRƏ ALINMALI ƏN MÜHÜM MƏQAM

Nəzərə alınmalı ən mühüm məqam ondan ibarətdir ki, yeni əməkdaşlıq sisteminin əsas qurucusu və təşəbbüskarı Prezident İlham Əliyev, onun rəhbərliyi ilə Azərbaycanın artan rolu, bölgəmizdə son illərdə yaradılan reallıqlar və iqtisadi-siyasi müstəqilliyimizdir. Bu, özünü ABŞ-Azərbaycan münasibətlərində də xüsusi olaraq büruzə verir. Bu günlərdə başa çatan Davos Forumu çərçivəsində Prezident İlham Əliyevin amerikalı həmkarı Donald Trampla görüşü, müzakirə olunan məsələlər sırasında ikitərəfli əlaqələrin dərinləşdirilməsinə xüsusi vurğu edilməsi Bakı-Vaşinqton əlaqələrinin Cənubi Qafqazın gələcək geosiyasi konfiqurasiyasında müstəsna əhəmiyyət daşıyacağından xəbər verir.

### TRAMPIN "AĞIR TOPU" CƏNUBİ QAFQAZA GƏLİR

İndi isə Donald Tramp bölgəyə ən çox inandığı və administrasiyada özündən sonra ikinci adam sayılan tərəfdaşını göndərir. "ABŞ-nin Vitse-prezidenti Jey Di Vens fevralda Vaşinqtonun Cənubi Qafqazda davam edən sülh səylərinin bir hissəsi olaraq Azərbaycan və Ermənistana səfər edəcək", - Donald Tramp "Truth Social" sosial şəbəkəsində yazıb. Onun sözlərinə görə, Vensin səfəri Azərbaycan və Ermənistan arasında sülh prosesini daha da irəli aparmağa, eləcə də "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) adlanan yolun həyata keçirilməsinə yönəlib.

## BAKIDA GÖZLƏNİLƏN MÜZAKİRƏLƏRİN ƏHƏMİYYƏTİ

ABŞ-nin Cənubi Qafqaz siyasətində Zəngəzur dəhlizi layihəsinin prioritet təşkil edəcəyi şəksizdir. Azərbaycanın milli maraqları, beynəlxalq hüquq və ədalətə əsaslanan haqlı tələbləri nəzərə alınmadan bu layihənin heç bir əhəmiyyət daşımadığı gerçəkliyi də ortadadır. Bu həqiqəti həm İrəvanda, həm də Vaşinqtonda çox yaxşı bilirlər. Bu səbəbdəndir ki, ABŞ Vitse-prezidentinin bölgəyə səfəri çərçivəsində Azərbaycanda aparacağı müzakirələrə maraq beynəlxalq səviyyədə daha böyükdür. Çünki Bakıda əldə ediləcək razılaşmalar qeyd etdiyimiz kimi, ABŞ-nin Cənubi Qafqazdakı baxışlarının şəkilləndirilməsində əsas məqam hesab edilir.

### AZƏRBAYCANIN UĞURLU DİPLOMATİK GEDİŞLƏRİ

TRIPP layihəsinin Azərbaycan və Ermənistan, həmçinin digər tərəflər üçün hansı üstünlüklər yaradacağı haqqında çox danışılıb. Lakin bu məsələdə Azərbaycanın mövqeyini nəzərə almalı olan tərəflər tək ABŞ və Ermənistanla yekunlaşmır. Bu siyahıda Mərkəzi Asiya, Çin, Avropa kimi nəhənglər də var. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qeyd olunan bütün tərəflərlə strateji əlaqələr qurmağı bacarıb. Avropa üçün Azərbaycan enerji və tranzit sahəsində uzunmüddətli etibarlı tərəfdaşdır. Mərkəzi Asiya üçün isə Azərbaycan quru sərhədlərimiz olmasa da, bölgənin ayrılmaz tərkib hissəsidir. Çinə gəldikdə isə ölkəmizlə münasibətlərdə yeni səhifənin açılması Pekin və Bakının qlobal tranzit sahəsində maraqlarının tamamilə üst-üstə düşdüyünün xəbərçisidir. Ən diqqət edilməli məqam isə odur ki, rəsmi Bakı bütün tərəflərin maraqlarını uzlaşdırmaqla Cənubi Qafqazı mövcud beynəlxalq konyunkturada strateji alternativə çevirməyə nail olub.



## TRAMPIN SÜLH TƏŞƏBBÜSÜNƏ BAKININ TÖHFƏSİ

Burada Ermənistana münasibətdə atılan addımlar da qeyd olunmalıdır. Məhz Vensin səfəri öncəsi Bakının İrəvana vaxtilə tətbiq etdiyi tranzit embarqosunun aradan qaldırılması nəticəsində bu ölkəyə daşınan strateji məhsulların həcmindəki artım ABŞ Prezidenti Donald Trampın bölgəmizdəki sülh təşəbbüsünə Bakının töhfəsi kimi də dəyərləndirilə bilər. Azərbaycan artıq Ermənistana yanacaq məhsullarının ixracına başlayıb. Qazaxıstan və Rusiyadan taxıl və digər məhsullar ölkəmizin tranzit imkanlarından istifadə edilməklə Ermənistana daşınır. İndi isə Bakı və İrəvan arasında Ermənistandan əks istiqamətə yüklərin daşınması müzakirə olunur. Bütün bu addımlar Bakı və Vaşinqtonun Cənubi Qafqazda sülh strategiyasının sağlam təməllər üzərində daha da irəli aparılmasında Azərbaycan rəhbərliyinin qətiyyətli siyasi iradəsinin olduğunun göstəricisidir.

### MANEƏLƏR ARADAN QALDIRILMALIDIR

Qarşılıqlı maraqların təmin edilməsi, ikitərəfli əlaqələrin inkişafı, Cənubi Qafqazın strateji tranzit qovşağa çevrilməsi istiqamətində maneələrin aradan qaldırılması da mühüm məqamdır. Burada əsas amil Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına birdəfəlik son qoyulması, ABŞ-Azərbaycan münasibətlərinin mövcud durumunun ruhuna uyğun olmayan 907-ci düzəlişin birdəfəlik ortadan qaldırılmasıdır. ABŞ Vitse-prezidentinin Cənubi Qafqaz səfəri çərçivəsində Bakı və İrəvanda aparacağı müzakirələrdə bu məqamlar üzərində xüsusi dayanılacağı da istisna deyil.

# İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQDA YENİ HƏDƏFLƏR

Bakı-Təl-Əviv əməkdaşlığının mövcud durumu hər iki tərəfdə yüksək qiymətləndirilir. Gideon Saarın Azərbaycana son məhsuldar səfərinin iki ölkə arasındakı əməkdaşlıq coğrafiyasının daha da genişləndirilməsinə mühüm töhfə verəcəyi proqnozlaşdırılır.





**Fotolar:** Tapdıq Abdullayev / Global Photostock

**F. ABASOĞLU**

Öncədən xəbər verildiyi kimi, yanvarın 26-da İsrailin xarici işlər naziri Gideon Saar Azərbaycana səfər etdi. O, səfər çərçivəsində Prezident İlham Əliyev, xarici işlər naziri Ceyhun Bayramovla görüşərək iki ölkə arasındakı münasibətlərin gələcək inkişaf perspektivlərinin müzakirəsini apardı.

### BEYNƏLXALQ VƏ REGİONAL MƏSƏLƏLƏR ƏTRAFINDA FİKİR MÜBADİLƏSİ

Prezident İlham Əliyevlə görüşdə ölkələr arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə uğurlu inkişafı vurğulanıb, kənd təsərrüfatı, su resurslarının idarə olunması, yüksək texnologiyalar, həmçinin süni intellekt sahələrində əməkdaşlıq məsələləri qeyd edilib, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığın dərinləşdirilməsi işinə verdiyi töhfəyə toxunulub. Gideon Saar Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Ceyhun Bayramov və Gideon Saar arasında baş tutan müzakirələrdə isə beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Qəzza zolağında vəziyyət, Yaxın Şərqdə sülh və sabitlik səyləri, eləcə də Cənubi Qafqazda post-münaqişə dövründə normallaşma gündəliyi müzakirə olunub.

### "PREZİDENT İLHAM ƏLİYEVİN MÜDRİK SİYASƏTİ OLMASAYDI..."

Azərbaycanlı həmkarı ilə birgə mətbuat konfransı zamanı Gideon Saar ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Ermənistanla münasibətlərin nizamlanması prosesində əldə edilmiş irəliləyiş münasibətilə Azərbaycanı təbrik edib. İsrailin XİN rəhbəri vurğulayıb ki, əldə edilmiş nəticələr Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində mümkün olub. Onun sözlərinə görə, Prezident İlham Əliyevin müdrik siyasəti olmasaydı, regionda sülh olmazdı.

Ceyhun Bayramov isə bildirib ki, Azərbaycan İsrail-Fələstin münaqişəsinin sülh yolu ilə həllinə tərəfdardır. Nazir qeyd edib ki, Azərbaycanın Qəzza zolağındakı atəşkəsin davamlı olması arzusunu İsrail tərəfinin diqqətinə çatdırıb.

### İSRAİL KAPİTALLI 130 KOMMERSİYA QURUMU

Səfər çərçivəsində diqqət çəkən məqamlardan biri də iki ölkə arasında iqtisadi əməkdaşlıq səylərinin genişləndirilməsi məqsədi ilə təşkil olunan biznes-forum oldu.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycan və İsrail institusional səviyyədə uzunmüddətli əlaqələrə əsaslanan möhkəm siyasi etimad və konstruktiv dialoq təməlinə sahibdir. Onun sözlərinə görə, bu gün Azərbaycanda İsrail kapitallı 130 kommersiya qurumu fəaliyyət göstərir. Azərbaycan və İsrail arasında əməkdaşlıq investisiyaların təşviqi və qarşılıqlı qorunması, habelə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərlə dəstəklənir. "Bunlar, işgüzar əlaqələrin genişləndirilməsi üçün möhkəm hüquqi baza yaradır. İqtisadiyyatlarımıza qoyulan qarşılıqlı investisiyaların dəyəri təxminən 600 milyon ABŞ dolları təşkil edir. Ölkələrimiz geniş spektrli sektorlar üzrə real nəticələr verən güclü və praqmatik tərəfdaşlıq qurublar. Buna misal olaraq, "Azərbaycan İnvestisiya Şirkəti" ASC (hazırda Azərbaycan Biznesinin İnkişafı Fondunun tərkibinə daxil edilib) və İsrailin 'OurCrowd' şirkəti arasında imzalanmış və icra olunan strateji əməkdaşlıq sazişini göstərmək olar. Bu saziş vasitəsilə Azərbaycan tərəfi enerji, səhiyyə, kiber-təhlükəsizlik, aqro-qida və təhsil texnologiyalarına diqqət yetirməklə texnologiya və biznes əlaqələrimizin genişləndirilməsinə yönəlmiş investisiyalar həyata keçirir", - deyə M.Cabbarov əlavə edib.

## AÇIQ DİALOQ, PRAKTİKİ LAYİHƏLƏR VƏ ƏLVERİŞLİ BİZNES MÜHİTİ

M.Cabbarov qeyd edib ki, Azərbaycan İsraillə strateji tərəfdaşlığını daha da möhkəmləndirməyə tam sadiqdir. Onun sözlərinə görə, Azərbaycan bunu açıq dialoq, praktiki layihələr və əlverişli biznes mühiti vasitəsilə etmək istəyir: "Son beş ildə hər iki xalq çox çətin sınaqlardan keçib, bir-birimizin yanında olmuşuq və düşünürəm ki, bu çətinliklərdən əvvəlkindən daha güclü və görünməmiş dostluq səviyyəsi ilə çıxdığımızı söyləmək ədalətli olar".

Gideon Saar isə vurğulayıb ki, ölkəsi Azərbaycana, xüsusilə müdafiə, enerji, su resursları, texnologiyalar və kibertəhlükəsizlik sahələrinə investisiyaların artırılmasında maraqlıdır. "Bütün bu məsələləri Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşüm zamanı ətraflı müzakirə etdim", - G.Saar qeyd edib. O əlavə edib ki, hər iki ölkə öz regionlarında sabitliyin dayağıdır və inkişaf etmiş iqtisadiyyata malikdir: "Biz bu strateji tərəfdaşlığı yeni səviyyəyə çıxarmağa - qarşılıqlı investisiyaları artırmağa və insanlar arasında əlaqələri dərinləşdirməyə çalışırıq. Əminəm ki, biz buna nail olacağıq".

Ümumilikdə, Bakı-Təl-Əviv əməkdaşlığının mövcud durumu hər iki tərəfdə yüksək qiymətləndirilir. Gideon Saarın Azərbaycana son məhsuldar səfərinin iki ölkə arasındakı əməkdaşlıq coğrafiyasının daha da genişləndirilməsinə mühüm töhfə verəcəyi proqnozlaşdırılır.

# SOCAR ÇİN ŞİRKƏTİ İLƏ SAZİŞ İMZALAYIB

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Çinin "CITIC Construction Co.,Ltd." şirkəti arasında enerji infrastrukturu, eləcə də "downstream" layihələrinin həyata keçirilməsi, birgə müəssisələrin yaradılması imkanları nəzərdən keçirilib.

"Report" SOCAR-a istinadən xəbər verir ki, bu barədə müzakirələr SOCAR-ın prezidenti Rövşən Nəcəfin Çinin "CITIC Construction Co.,Ltd."nin İdarə Heyətinin sədri Yanq Ciançiyanq ilə görüşündə aparılıb. Görüşdə SOCAR ilə Çinin müxtəlif şirkətləri arasında uğurlu əməkdaşlıq əlaqələrindən bəhs edilib.



Söhbət zamanı SOCAR-ın Azərbaycanda və onun hüdudlarından kənarda həyata keçirdiyi layihələr, şirkətin korporativ strateji hədəfləri barədə məlumat verilib.

Görüşdə potensial əməkdaşlıq imkanlarının araşdırılması məqsədilə şirkətlər arasında Çərçivə Sazişi imzalanıb.

Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 166
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

## Qatlanan cib bıçaqlarının qadağan olunması problemləri həll edəcəkmi?

# AQRESSİYANIN İTİ UCU

**Azərbaycanda cib bıçaqlarının satışının qadağan olunması təklif edilir. Səbəb kimi artan cinayət halları göstərilir. Lakin ekspertlər qadağanın heç də gözlənilən nəticəni verməyəcəyi qənaətindədirlər.**



SEVİNC ABBASOVA

Bir vaxtlar gənclər arasında adi söz atışması ilə bitən mübahisələr getdikcə daha təhlükəli məcraya yönəlir. Kiçik gərginliklər kəsici-deşici alətlərin işə düşdüyü zorakılıq hadisələri ilə nəticələnir. Qatlanan cib bıçaqlarının sərbəst satışı isə bu problemə təkan verən əsas amillərdən biri hesab olunur. Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Müşfiq Cəfərli məsələ ilə bağlı parlamentdə çıxışında bildirib ki, gənclər arasında bıçaqlanma hadisələrinin tez-tez baş verməsi təəssüf doğurur. Statistik məlumatlar göstərir ki, çox vaxt bu hadisələr cibdə gəzdirilən qatlanan bıçaqlarla törədilir. O, təklif edir ki, həmin bıçaqların satışı və istifadəsi qadağan olunsun.

Lakin ekspertlər hesab edirlər ki, məsələnin kökündə duran səbəbləri yalnız bıçaqlarla bağlı məhdudiyyətlərlə həll etmək mümkün deyil.

### "YENİYETMƏLƏRİN SOSİALLAŞDIĞI MÜHİTİ ANALİZ ETMƏLİYİK"

Sosial məsələlər üzrə ekspert, sosioloq Üzeyir Şəfiyev problemin dərin sosial təhlilini vacib sayır. Onun fikrincə, qatlanan bıçaqların açıq satışda olması yalnız görünən tərəfdir. Əsas diqqət yeniyetmələri bu hərəkətə vadar edən amillərə yönəlməlidir: "Biz bilməliyik ki, gənclər hansı səbəbdən aqressivləşirlər. İlk növbədə uşaqların və yeniyetmələrin sosiallaşdığı mühiti analiz etməliyik. Sosiallaşma institutları - ailə, məktəbəqədər müəssisələr, məktəb və sosial şəbəkələr uşaqların davranışlarına böyük təsir göstərir. Əgər ailə mühiti psixoloji diskomfort doğurursa, bu travma uşağa keçir və onun davranışlarına təsir göstərir", - deyə Ü.Şəfiyev vurğulayır. O əlavə edir ki, münaqişəli ailələrdə böyüyən uşaqların aqressiv davranışlara meyli daha yüksək olur. Eyni zamanda, məktəb və məktəbəqədər müəssisələrdə bullinq və toksik mühit də gənclərin psixologiyasına mənfi təsir göstərir. Bu faktorlar uşaqların özünəinamını zəiflədir, aqressiyasını artırır və nəticədə bıçaq gəzdirilməsi kimi davranışlara yol açır.

Sosioloq sosial medianın və internet resurslarının da yeniyetmələr üzərində təsirini diqqətə çatdırır: "Sosial şəbəkələrdə və internetdə uşaqlara mənfi təsir göstərən məzmun geniş yayılıb. Cizgi filmləri, aqressiya və zorakılığı təbliğ edən oyunlar uşaqların psixologiyasına zərər verir. Cəmiyyətdə cinayət aləminin qəhrəmanlaşdırılması da problemə əlavə yük gətirir".

Ekspert hesab edir ki, yalnız qanuni məhdudiyyətlər yetərli deyil. Sosial mühitin sağlamlaşdırılması, uşaqların psixoloji və emosional dəstəklə təmin olunması, ailə və məktəb mühitinin monitorinqi və sosial medianın etik çərçivəyə salınması da vacibdir.



Üzeyir Şəfiyev

### Qadağa mexanizmi effekt verə bilərmi?

Hüquqşünas Ayazbəy Əhmədov isə qeyd edir ki, problemin kökü qanuni qadağalarda deyil, insanın düşüncə tərzindədir. Onun sözlərinə görə, həyat və sağlamlıq əleyhinə olan, xüsusilə bədən xəsarətinin yetirilməsi ilə bağlı cinayət işlərində müdafiəçi kimi iştirak edən zaman əldə etdiyi təcrübə göstərir ki, bu cür hadisələrin əsas səbəbi psixoloji və ideoloji müstəvidə formalaşır: "Problemlər beyində başlayır. Təfəkkür dəyişmədiyi müddətdə cib bıçaqlarının satışının qadağan edilməsi real nəticə verməyəcək. Əksinə, bu cür qadağalar həmin əşyalara marağı daha da artıra bilər".

Hüquqşünasın fikrincə, cib bıçaqlarının satışı dayandırılarsa, kustar üsulla bu vasitələri hazırlayan və bundan qazanc əldə etməyə çalışan şəxslər meydana çıxacaq: "Əgər bir insan düşünürsə ki, şəxsi təhlükəsizliyi üçün ona belə bir alət lazımdır, o, bunu ya özü hazırlayacaq, ya da kiməsə hazırladacaq. Bu, texniki baxımdan çətin proses deyil".

A.Əhmədov millət vəkilinin qadağa təşəbbüsünü xoş niyyətli addım kimi qiymətləndirsə də, bu yanaşmanın praktik nəticə verəcəyinə inanmır. O, buna nümunə olaraq ölkədə pirotexniki vasitələrin satışının qadağan olunmasına baxmayaraq, həmin vasitələrin müxtəlif yollarla əldə edilməsini göstərir. "İstək olduğu yerdə qadağa problemi həll etmir", - deyə hüquqşünas əlavə edir. Ekspertin fikrincə, insanlara silahın daşınmasını qadağan etməkdənsə, həyatın toxunulmazlığı dəyərini aşılamaq lazımdır.

## "Bəzi insanlar bu cür alətləri həyat tərzinə çevirir"

A.Əhmədov təcrübəsində rastlaşdığı bir nümunəni də xatırladaraq bildirir ki, bəzi insanlar bu cür alətləri həyat tərzinə çevirirlər. Onun sözlərinə görə, bəzi şəxslər qatlanan bıçağı bir əllə açmaq üçün illərlə məşq edir və bunu o qədər peşəkar şəkildə bacarırlar ki, kənardan müşahidə edənlər belə həmin anda bıçağın istifadə olunduğunu hiss etmirlər: "Bəzi insanlar hesab edir ki, kişinin üzərində mütləq silah olmalıdır. Məhz bu düşüncə tərzini insanların beynindən çıxarmaq lazımdır".

### DAXİLİ QORXULARA QARŞI TAXILAN CƏSARƏT MASKASI

Məsələni psixoloji aspektdən dəyərləndirən psixoloq Vəfa Əkbər bildirir ki, gənclərin üzərində kəsici-deşici alət gəzdirməsi yanlış güc nümayişidir: "Həmin gənc fiziki güc və intellektual bacarıqları ilə özünü təsdiq edə bilməyəndə, əlindəki aləti güc mənbəyi kimi istifadə edir. Metal parçası onun gözündə sadəcə alət deyil, daxili qorxularına qarşı taxdığı cəsarət maskasıdır".

Psixoloq əlavə edir ki, gənclər emosiyalarını idarə edə bilmədikləri üçün gərgin anlarda bıçaq və ya başqa soyuq silah dövriyyəyə girir.

V.Əkbər qadağaların yalnız profilaktik rol oynadığını, amma problemin həllini təmin etmədiyini qeyd edir: "Cib bıçaqlarının satışını qadağan edə bilərik, amma bu, gəncin daxilindəki aqressiyanı, qorxu instinkti adı altında yaranan zorakılığı aradan qaldırmayacağıq. O, öz aqressiyasını nümayiş etdirmək üçün başqa vasitələr tapacaq. Əsas gəncin düşüncə tərzini dəyişməkdir", - deyə psixoloq izah edir.

Ekspertin fikrincə, gənclər güclü olmağı fiziki deyil, psixoloji olaraq öyrənməlidir. Onlar daxili qorxularını aşmalı, emosiyalarını idarə etməyi bacarmalıdırlar.



Ayazbəy Əhmədov Vəfa Əkbər

# KUBA ÜÇÜN "VENESUELA SSENARİSİ"



Venesuelada uğurlu rejim dəyişikliyi əməliyyatından sonra ABŞ administrasiyası Kubaya da oxşar strategiya tətbiq etməyi düşünür. Lakin bu dəfə hərbi yox, iqtisadi rıçaqlar işə düşəcək.



AZƏR NURİYEV

Venesuelada baş verənlərdən sonra diqqət gündəmi Kubaya yönəlib. Bəziləri ABŞ Prezidenti Donald Trampın növbəti hədəfinin Kuba olacağını gözləyir. Yayılan xəbərlərə görə, Vaşinqton 2026-cı ilin sonuna qədər Kuba hökumətini dəyişməyi prioritet kimi nəzərdən keçirir. Trampın "Kuba illərdir Venesueladan böyük həcmdə neft və pullar alır. Kubaya daha çox neft və ya pul axmayacaq. Mən onları çox gec olmamışdan əvvəl razılaşma əldə etməyə çağırıram" deməsi təsadüf kimi qiymətləndirilmir.

Vaşinqton Venesuela Prezidenti Nikolas Maduronun ələ keçirilməsi əməliyyatının uğurunu Kubada rejim dəyişikliyi üçün açılan imkan pəncərəsi kimi qəbul edir. Donald Tramp komandasının hələlik adanın hazırkı hakim elitasını devirmək üçün konkret planı yoxdur. Lakin hətta sərt kursu dəstəkləyənlər də etiraf edirlər ki, Kuba rejimi Venesuela rejimindən daha sabitdir. Hələlik Ağ Evdə müzakirə gedir: "Kuba problemi"ni indi həll edək, yoxsa sonraya saxlayaq? Tramp administrasiyasının "qırğı"larından olan Marko Rubio bir çox məsələlərdə olduğu kimi, yenə də qəti hərəkətlərin tərəfdarıdır. Tramp da özünü sələflərinin (10 ABŞ prezidentinin) həll edə bilmədiyi problemi həll etməyə hazır və qadir sayır.

## VASSALDAN "AZADLIQ ADASI"NA

Xatırladaq ki, Kuba problemi ABŞ üçün 1953-59-cu illər arasında yaranmağa başlayıb. 1959-cu ildən etibarən əsl problem halına gəlib. Həmin ilə qədər Kuba ABŞ-nin vassalı olub. Vaşinqton bu ölkədə yerli diktator Fulgencio Batistanın rəhbərliyi ilə amansız rejim bərqərar edib. Ada dövlətində korrupsiya, işsizlik, aqrar bərabərsizlik hökm sürüb. Hər yanda ABŞ kapitalı dominant olub, əsas sənaye sahələri (şəkər, rabitə) ABŞ şirkətləri tərəfindən idarə olunub. 1952-ci il çevrilişindən sonra Batista ölkənin konstitusiyasını ləğv edib, söz azadlığını yasaqlayıb, repressiv rejim qurub və bu addımlar həm yerli mafiya, həm də ABŞ tərəfindən tam dəstəklənib. Xalq kütlələri həm Batistanın amansız rejimindən, həm də ölkənin ABŞ-nin açıq müstəmləkəsi olmasından narazı olub. Bütün bunlar sonda Kubada Fidel Kastronun başçılığı ilə üsyanın başlamasına və Batistanın ölkəni tərk etməsinə gətirib çıxarıb. Ölkə uzun müddət "Azadlıq adası" kimi tanınıb.



Donald Tramp

Amma son vaxtlar vəziyyət dəyişib. Rusiya SSRİ-nin varisi kimi Kubanı tam müdafiə edə bilmir.

### İQTİSADİ TƏZYİQ VƏ ELİT BÖLÜNMƏYƏ YÖNƏLMİŞ ÇOXŞAXƏLİ STRATEGİYA

Beləliklə, Venesueladakı uğurlu rejim dəyişikliyi əməliyyatından sonra ABŞ administrasiyası Kubada da oxşar ssenarini reallaşdırmaq istəyir. Venesuelada dövlət başçısının ələ keçirilməsini əhatə edən birbaşa hərbi əməliyyat həyata keçirilib. Kubada isə iqtisadi təzyiqə və elit bölünməyə yönəlmiş çoxşaxəli strategiya təklif olunur. Söhbət neft tədarükünün tam dəniz blokadasından gedir. Embarqonu sərtləşdirmək üçün 1996-cı il qanunundan istifadə, Kuba ilə əməkdaşlıq edən ölkələrə qarşı hədəfli sanksiyalar nəzərdə tutulur. Daxili siyasi təzyiqə gəldikdə, Kuba elitasının nümayəndələri ilə əlaqə tapmaq, mühacir təşkilatları ilə işləmək, hakimiyyətin keçidinin potensial tərəfdarlarını müəyyən etmək cəhdləri var.



Migel Dias-Kanel

## İQTİSADİ DURUM HƏQİQƏTƏN ÇƏTİNDİR

Kubada iqtisadi durum həqiqətən çətindir. Bir vaxtlar yerli istehlakın əsas məhsulları olan süd, donuz əti, lobya və düyü kimi qidaların istehsalı kəskin azalıb. 2024-2025-ci illərdə Kuba ilk dəfə olaraq yeddi yaşdan kiçik uşaqlar üçün paylanan toz südün tədarükü ilə bağlı BMT-nin Ümumdünya Ərzaq Proqramının qrantlarına etibar etmək məcburiyyətində qalıb. Son bir ildə ölkədə yoxsulluq daha da artıb: kubalıların 88%-i gündə 1,90 dollardan az pulla yaşayır. Venesueladan neft tədarükünün (ehtiyacların 50%-ni ödəyirdi) kəsilməsindən sonra adada elektrik kəsintiləri, ciddi yanacaq çatışmazlığı var.

### "KUBA GÜZƏŞTƏ GETMƏYƏCƏK"

Bütün bunların fonunda Kuba Prezidenti Migel Dias-Kanel bildirir ki, təzyiq altında hər hansı qarşılıqlı anlaşmaya nail olmaq mümkün deyil. Kuba ABŞ ilə bərabərlik və hörmətə əsaslanan anlaşma danışıqlarına hazırdır, amma heç vaxt siyasi güzəştə getməyəcək.

ABŞ-ni çəkindirən əsas məsələ Kubanın Venesueladan fərqlənməsidir. Uzunmüddətli böhranla adada İraq ssenarisinin təkrarlanması qorxusu var. Kuba rejimi altmış ildən çoxdur ki, sabitliyini qoruyub saxlayır. 1962-ci il Karib böhranı, onilliklər davam edən iqtisadi embarqo, çoxsaylı daxili və xarici çətinliklər riski istənilən nəticəni verməyib. Geosiyasi aspektlərə gəldikdə, Kubanın Meksika körfəzinin girişindəki strateji mövqeyi, o cümlədən Rusiya və Çinlə sıx münasibətləri də gözardı edilməməlidir.

### QƏRB MEDİASININ SSENARİLƏRİ

"The Wall Street Journal" (WSJ), "Reuters" və "Politico" daxil olmaqla bir neçə qərb mediasının təhlillərində bildirilir ki, Ağ Ev müvafiq qurumlara bu ilin sonuna qədər iqtisadi boğulma və Kuba elitasının nümayəndələri ilə pərdəarxası sövdələşmələrin kombinasiyasına arxalanmaqla Havanada hakimiyyət dəyişikliyinə nail olmaq tapşırığı verib.

Xatırladaq ki, Barak Obama prezident olarkən, ABŞ Kuba ilə münasibətləri normallaşdırmaq siyasəti yürüdürdü. O vaxt iki ölkə arasında diplomatik əlaqələr bərpa olunmuş, icazəli səfər kateqoriyaları genişləndirilmişdi. Lakin Tramp ilk prezidentlik müddətində bu kursu qismən geri çevirdi: 2017-ci ildə o, "sazişi ləğv etdiyini" elan etdi və məhdudiyyətlər bərpa olundu.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

MÜSAHİBƏ Kaspi 31 YANVAR ŞƏNBƏ 2026 9

“GƏLƏCƏYİN LİDERLƏRİ TEXNOLOGİYANI İDARƏ EDƏN YOX, TEXNOLOGİYA İLƏ DÜŞÜNMƏYİ BACARAN İNSANLARDIR”

# ZƏKA YÖNÜMLÜ CƏMİYYƏTƏ KEÇİD STRATEJİ SEÇİMDİR



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Vasif Eyvazzadə:** “Hazırda güc artıq yalnız təbii sərvətlərdə deyil. Əsas resurs insan beynidir, düşünmə qabiliyyətidir və ideyadan dəyər yaratmaq potensialıdır”.

“İnkişaf etmiş ölkələrin bugünkü yüksək səviyyəyə çatmasının əsas səbəbi onların zəngin təbii ehtiyatlara malik olması deyil, məhz zəka, ağıl, təhsil və elmin gücünə verdikləri dəyərdir”. Bu sözləri Prezident İlham Əliyev jurnalistlərə son müsahibəsində qeyd edib. Prezidentin sözlərinə görə, tarix göstərir ki, insan kapitalına yatırım edən dövlətlər davamlı və dayanıqlı inkişaf yolunu seçmiş olurlar.

XXI əsrdə güc artıq yalnız təbii sərvətlərdə deyil, insan beynində və ideyadan dəyər yaratmaq potensialındadır. Bu baxışdan çıxış edərək, Azərbaycanda zəka yönümlü cəmiyyət modelinə keçidin perspektivlərini öyrənmək üçün Vasif Eyvazzadə ilə söhbət etdik. O, ABŞ-də “Chartered Culture and Education Institute”nin (CCEI – Mədəniyyət və Təhsil İnstitutu) təsisçisi və rəhbəridir. Bu institut zəka yönümlü cəmiyyətin formalaşmasına xidmət edən düşüncə və təhsil platformasıdır.

### “BİZ NƏ BİLİRİK?” YOX, “BİLDİYİMİZLƏ NƏ YARADA BİLİRİK?”

**● Vasif bəy, bu gün tez-tez səslənən “zəka yönümlü cəmiyyət” anlayışı nədir? Zəka yönümlü cəmiyyət dedikdə, nə nəzərdə tutulur?**

● Zəka yönümlü cəmiyyət diplomların sayının çoxluğu və ya formal təhsilin genişlənməsi demək deyil. Bu anlayış düşünmə mədəniyyətinin institusionallaşdığı bir inkişaf modelini ifadə edir. Belə cəmiyyətlərdə əsas diqqət informasiyanın ötürülməsinə deyil, analitik düşünmə, sistemli yanaşma, qərarvermə, problem həll etmə və intellektual məhsullardan real dəyişiklik yarada biləcək dəyərin istehsalına yönəlir. Burada əsas sual “biz nə bilirik?” yox, “bildiyimizlə nə yarada bilirik?” olur. Yəni bilik passiv resursdan aktiv istehsal vasitəsinə çevrilir. Sürətlə dəyişən və qeyri-müəyyənliklərlə dolu qlobal mühitdə düşünmə qabiliyyəti strateji kapital kimi dəyərləndirilir.

**● Maraqlıdır, süni intellektin bir çox funksiyanı insanın əlindən aldığı bir dövrdə, zəka yönümlü cəmiyyət insanı hansı bacarıqları ilə önə çıxarmalıdır?**

● Bu, çox kritik və strateji sualdır. Süni intellekt insanın texniki və rutin funksiyalarını sürətlə əvəz edir. Lakin insanı dəyərli edən əsas üstünlük məhz texniki bilik deyil. Zəka yönümlü cəmiyyət insanı bir sıra fundamental bacarıqlarla, yəni kritik və analitik düşünmə, kompleks problemləri dərk etmə, etik qərarvermə, empati və mədəni konteksti oxuma qabiliyyəti, yaradıcı yanaşma və mənanı formalaşdırmaq bacarığı kimi səriştələrlə önə çıxartmalıdır. Süni intellekt alətləri, məlumatı emal edə bilər, lakin “niyə”, “necə” və “nə üçün indi” suallarını dərin məna səviyyəsində yalnız insan verə bilir. Bu mənada, gələcəyin liderləri texnologiyanı idarə edən yox, texnologiya ilə düşünməyi bacaran insanlardır. Bu səbəbdən zəka yönümlü cəmiyyət insanı bilik daşıyıcısı kimi yox, düşüncə memarı kimi yetişdirməlidir. Ötən il Vaşinqtonda keçirilən beynəlxalq tədbirlərdən birində dünyanın ən yüksək bazar dəyərinə malik texnologiya şirkətlərindən biri olan NVIDIA-nın təsisçisi və rəhbəri Jensen Huangın çıxışında səsləndirdiyi bir fikir məni dərindən düşündürdü. O qeyd edirdi ki, gələcəyin əmək bazarında əsas rəqabət süni intellektlə insan arasında deyil, süni intellekti effektiv şəkildə istifadə edə bilənlə bunu bacarmayan insanlar arasında olacaq. Bu yanaşma əslində süni intellekt dövrünün mahiyyətini çox dəqiq ifadə edir.

### KONSEPTUAL YANAŞMANIN TRANSFORMASİYASI

**● Prezident İlham Əliyevin müsahibəsində təhsil və elm mövzusuna xüsusi yer ayrıldı. Bu, ölkəmizdə zəka yönümlü cəmiyyət modelinə keçid baxımından hansı mesajı verir?**

● Bu müsahibəni strateji baxımdan dönüş nöqtəsi kimi qiymətləndirirəm. Prezident İlham Əliyev təhsil və elmi ölkənin gələcək inkişaf modelinin əsas dayağı kimi təqdim etdi. Bu, sadəcə ritorik mövqe deyil, konseptual yanaşmanın transformasiyasıdır. Xüsusilə vurğulamaq istərdim ki, hazırda güc artıq yalnız təbii sərvətlərdə deyil. Əsas resurs insan beynidir, düşünmə qabiliyyətidir və ideyadan dəyər yaratmaq potensialıdır.

### TOP UNİVERSİTETLƏRİN FƏRQİ

**● Siz ABŞ-də dünyanın aparıcı universitetlərindən biri olan Johns Hopkins Universitetində qlobal menecer kimi çalışmısınız. “Bildiyimizlə nə yarada bilirik?” sualı dünyanın top universitetlərində necə tətbiq olunur?**



> *“Gələcəyin əmək bazarında əsas rəqabət süni intellektlə insan arasında deyil, süni intellekti effektiv şəkildə istifadə edə bilənlə bunu bacarmayan insanlar arasında olacaq.”*



● Dünyanın aparıcı universitetlərində ortaq fəlsəfə görürük. Məsələn, Harvard, Stanford və Johns Hopkins universitetlərində təhsil yalnız ixtisas bilikləri üzərində qurulmur. “Harvard Kennedy School”da tələbələr real dövlət problemləri üzərində işləyirlər. Onlar siyasət, iqtisadiyyat, etik çərçivələr və sosial təsirləri eyni anda təhlil etməyə məcbur olurlar. Burada məqsəd tələbəni “düzgün cavab tapmağa” deyil, mürəkkəb, çoxsəviyyəli və ziddiyyətli qərar mühitində düşünməyə hazırlamaqdır. Bu yanaşma klassik akademik tədrisdən köklü şəkildə fərqlənir.

Stanford Universiteti isə dizayn düşüncəsi və innovasiya yanaşması ilə seçilir. “Stanford d.school” modeli göstərir ki, problem ilk növbədə insan prizmasından başa düşülməlidir. Empati, ideya generasiyası, prototipləşdirmə və test mərhələləri düşünmənin mərkəzinə yerləşdirilir. Bu yanaşma yalnız texnologiya və biznes üçün deyil, dövlət və şəhər idarəetməsi üçün də tətbiq olunur. Johns Hopkins Universiteti xüsusilə səhiyyə, elm və tədqiqatın idarəedilməsi, eləcə də xarici siyasət sahəsində çox güclüdür. Burada təhsil sübutlara əsaslanan qərarvermə üzərində qurulub. Bu model göstərir ki, elm sadəcə istehsal edilmir, idarə olunur, ölçülür və strateji qərarvermənin bir hissəsinə çevrilir. Elmin idarəedilməsi artıq ayrıca bir peşə sahəsidir və xüsusi düşünmə bacarıqları tələb edir. MIT-də texnologiya sadəcə məqsəd deyil, o inkişaf və dəyişiklik üçün bir alətdir. Əsas fokus sistem düşüncəsi, kompleks problemlərin modelləşdirilməsi və texnologiyanın sosial təsirinin ölçülməsidir. Bu yanaşma ağıllı şəhərlər, rəqəmsal hökumət və data-əsaslı dövlət idarəetməsi üçün xüsusilə aktualdır.

**● Bu qlobal yanaşmalar sizin rəhbərlik etdiyiniz CCEI-nin fəaliyyətinə necə inteqrasiya olunur?**

● Biz CCEI-də bu modelləri mexaniki şəkildə fəaliyyətimizə inteqrə etmirik. Onları regional reallıqlara, institusional mədəniyyətə və yerli ehtiyaclara uyğunlaşdıraraq inteqrativ yanaşma qururuq. Dövlət və şəhər idarəetməsi, təhsil və elmin idarəedilməsi, mədəniyyət və irsin idarəedilməsi üzrə proqramlarımız yalnız sahəvi biliklərlə məhdudlaşmır. Biz paralel olaraq onları adaptiv və yaradıcı liderlik, strateji və institusional düşünmə, dizayn düşüncəsi, kommunikasiya və təsir bacarıqları, həyat və karyera dizaynı, qlobal əmək bazarında rəqabət qabiliyyəti proqramları kimi komponentlərlə birlikdə təqdim edirik. Eyni zamanda dünyada bir ilk olan Dünya Mədəniyyət İndeksi üzərində işləyirik. Bu indeks mədəniyyəti statik irs kimi deyil, dinamik inkişaf və öyrənmə resursu kimi ölçür, əsas meyarlardan biri də fərqli mədəniyyətlərdə düşünmə çevikliyi və dəyər yaratma potensialıdır.

### “BU BİLİKLƏR HƏR BİR AZƏRBAYCANLI ÜÇÜN ANA DİLİNDƏ ƏLÇATANDIR”

**● Bəs bu proqramların Azərbaycan auditoriyası üçün əhəmiyyəti nədən ibarətdir?**

● Azərbaycanın qarşısında duran əsas çağırış insan kapitalının keyfiyyətcə transformasiyasıdır. Bu transformasiya yalnız universitetlərin sayını artırmaqla mümkün deyil. Əsas məsələ təfəkkür dəyişikliyidir. Bu səbəbdən proqramlarımızın böyük hissəsi artıq Azərbaycan dilində platformaya yerləşdirilib və tam lokalizasiya prosesi davam edir. Dünyanın aparıcı universitetlərinin təqdim etdiyi bilik və çərçivələri hər bir azərbaycanlı üçün yaşadığı kənddən və ya şəhərdən asılı olmayaraq, ana dilində əlçatan edirik.

**● Süni intellekt (Aİ) zəka yönümlü cəmiyyətə keçid modelində hansı rolu oynayır?**

● Süni intellekt bu müzakirənin mərkəzində dayanmalıdır. Süni intellekt sadəcə texnoloji alət deyil, düşünmə və qərarvermə mədəniyyətini köklü şəkildə dəyişdirən transformativ qüvvədir. Zəka yönümlü cəmiyyətlər bundan düşünməni gücləndirən alət kimi istifadə edir, insan və süni intellekt arasında sinerji yaradılır. Bu isə data savadlılığı, etik qərarvermə, sistem düşüncəsi, kritik analiz və mədəni kontekstin düzgün oxunması kimi yeni nəsil bacarıqlar tələb edir. CCEI-də məqsəd insanı Aİ ilə əvəz etmək deyil, Aİ ilə daha strateji düşünən insan yetişdirməkdir.

### “DİGƏR RİSK ETİK BOŞLUQDUR”

**● Bu gün süni intellektdən geniş istifadə edən, amma hələ də düşünmə mədəniyyətini formalaşdıra bilməyən cəmiyyətlər üçün əsas risklər nələrdir?**

● Burada əsas risk texnologiyanın sürətinin düşünmənin dərinliyini üstələməsidir. Belə cəmiyyətlərdə informasiya bolluğu olsa da, strateji mühakimə zəifləyir. İnsanlar qərarları analiz etmədən, səbəb-nəticə əlaqəsini qurmadan alqoritmlərə etibar etməyə başlayırlar. Bu isə intellektual asılılıq yaradır. Digər risk etik boşluqdur. Düşünmə mədəniyyəti olmayan yerdə süni intellekt yanlış qərarları daha sürətli və daha geniş miqyasda yayır. Yaradıcılıq azalır, çünki insanlar hazır cavablarla yaşamağa öyrəşir. Uzunmüddətli perspektivdə isə belə cəmiyyətlər texnologiya istehsalçısı yox, texnologiya istehlakçısı olaraq qalırlar. Zəka yönümlü cəmiyyət üçün əsas məsələ süni intellekt alətlərindən istifadə etmək deyil, onları hansı düşüncə fəlsəfəsi ilə istifadə etməkdir.



Fotolar: Rüfət Mikayılov / Global Photostock

## “TƏLƏBƏLƏR HƏM DƏ İŞ YARADAN AKTORLAR KİMİ YETİŞDİRİLMƏLİDİRLƏR”

**● 2025-ci ilin oktyabr və dekabr aylarında Bakıya səfərlər etdiniz. Bu səfərlər çərçivəsində əsasən nələr müzakirə olundu?**

● Bu səfərlərin əsas məqsədi ölkədəki universitetlərin administrativ heyəti, müəllimləri və tələbələri üçün ABŞ universitetlərində tətbiq olunan daxili öyrənmə və inkişaf (L&D) modelləri barədə məlumatlandırma aparmaq idi. Müzakirələri klassik “nəyi bilirik?” sualı üzərindən deyil, daha dərin və strateji bir yanaşma ilə “nəyi bilmədiyimizi bilirikmi?” sualı ətrafında qurduq. Səfər çərçivəsində 10-dan çox universitetin rəhbərliyi və komandaları, eləcə də birbaşa tələbələrlə görüşlər keçirdik. Mesajımız aydın idi: universitetlər yalnız bilik ötürən institutlar deyil, düşünmə, dəyər yaratma və liderlik ekosistemləri olmalıdır. Tələbələr isə təkcə gələcək iş axtaranlar kimi deyil, iş yaradan və cəmiyyətə töhfə verən aktorlar kimi yetişdirilməlidirlər. Bunun üçün isə dizayn düşüncəsi və sistem düşüncəsi kimi sahələrdə dərin bilik və təcrübələr əldə edilməlidir. Müxtəlif dövlət qurumları ilə də məzmunlu və perspektivli müzakirələr apardıq. Bizim əsas strateji hədəflərimizdən biri Azərbaycan universitetlərindən birində Elm və Texnologiya Diplomatiyası Hubunun yaradılmasıdır. Bu Hub elm, texnologiya və diplomatiya sahəsində fəaliyyət göstərən mütəxəssisləri bir araya gətirərək beynəlxalq və regional səviyyədə elmi–texnoloji əməkdaşlıq və bilik mübadiləsi üçün dayanıqlı platforma rolunu oynaya bilər. Bu sahədə Johns Hopkins Universitetində əldə etdiyim praktiki təcrübəyə əsaslanaraq, həmin təşəbbüsə həm institusional, həm də ekspert səviyyəsində dəstək verməyə tam hazırıq.

**● CCEI-də bu yanaşmalar konkret olaraq hansı metodoloji model üzərində qurulub?**

● CCEI-də bütün proqram və təşəbbüslərimiz özümüzün INSIGHT - “Integrated & Strategic Growth through Human Intelligence & Transformative Learning” (İnsan Zəkası və Transformativ Öyrənmə vasitəsilə İnteqrativ və Strateji İnkişaf) Modeli üzərində qurulub. Bu model öyrənməni təsadüfi proses kimi deyil, məqsədli, ölçülə bilən və adaptiv inkişaf mexanizmi kimi dizayn edir. INSIGHT insan zəkasını mədəni kontekst, institusional mühit və strateji ehtiyaclarla birlikdə nəzərdən keçirir. Burada öyrənmə bilik toplamaqdan daha çox, bilikdən real təsir və dəyər yaratmağa keçid deməkdir. Model fərdi inkişafı institusional dəyərə bağlayan, süni intellekt dövrünə uyğun davamlı öyrənmə arxitekturası yaradır.

**● Gələcəyi resurslarla yox, düşünən insanlarla qurmaq seçimi Azərbaycan üçün nə qədər strateji əhəmiyyət daşıyır?**

● Dünyanın aparıcı ölkələri artıq bu seçimi ediblər və Azərbaycan da bu istiqamətdə mühüm addımlar atır. Təhsil, elm və süni intellekt sahəsində verilən hər strateji qərar ölkənin 20-30 illik inkişaf trayektoriyasını müəyyən edir. Zəka yönümlü cəmiyyət təsadüfən yaranmır, o, ardıcıl, sistemli və düşünülmüş siyasətin nəticəsidir. Hesab edirəm ki, hazırda Azərbaycanda bir sıra özəl və dövlət qurumları - Təhsil Nazirliyi, Rəqəmsal inkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, ASAN xidmətə məsul qurum, Mədəniyyət Nazirliyi, PAŞA Holding və digərləri bu istiqamətdə ciddi addımlar atırlar. Mənim təhsil üzrə doktorluq istiqamətim insan və təşkilati biliklər sahəsini əhatə edir. Bu səbəbdən həm CCEİ rəhbəri, həm də bir azərbaycanlı olaraq ölkəmizin bu sahədə inkişafına töhfə verməyə nəinki hazırıq, biz artıq bu prosesə başlamışıq.

# PASİYENT NARAZIDIR, HƏKİM GƏRGİN



Son günlər tibb müəssisələrində pasiyentlərə qarşı həkimlərin, tibbi personalın kobud rəftarı və səhlənkarlıqları ilə bağlı silsilə şikayətlər gəlir. Belə durumlarda zərərçəkənlərin hüquqlarının qorunması üçün hansı vasitələrin olduğu maraq doğurur.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Həkimlərin laqeydliyi, xəstələrə qarşı aqressiv münasibətləri, klinikaların pasiyentlərin şikayətlərinə məhəl qoymamaları Azərbaycan səhiyyə sistemi ilə bağlı əsas şikayətlər arasındadır. Hətta ən bahalı klinikalarla bağlı da bu cür narazılıqlar səslənməkdədir. Paralel olaraq, həkimlər arasında da pasiyentlərin davranışlarından narazılıqlar artmaqdadır.

Son günlər sosial platformalarda da klinikalarda pasiyentlərə qarşı həkimlərin və ümumən personalın kobud rəftarı və səhlənkarlıqları ilə bağlı silsilə statuslara rast gəlinir. Yəni istənilən xəstənin tibb müəssisələrində barmaqarası xidmətlə üzləşmək riski var. Belə hallarda xəstənin həm pulu gedir, həm də canı.

Maraqlıdır, əgər vətəndaş dövlət tibb müəssisəsində və ya özəl klinikada göstərilən tibbi yardımın keyfiyyətindən və ümumən qeyri-insani münasibətdən narazıdırsa, kimdən imdad diləməlidir?

### “GƏRGİNLİK BƏZƏN ADİ PROSEDUR QAYDALARIN POZULMASI İLƏ BAŞLAYIR”

Milli Məclisin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədli bildirdi ki, bütün dünyada olduğu kimi Azərbaycanda da pasiyent-həkim münasibətləri bəzi hallarda təşəkkür, bəzən isə pasiyent məmnuniyyətsizliyi, kobud rəftar, peşəkar olmayan davranışlarla müşahidə olunur: “Amma təbii ki, bu cür qeyri-peşəkar davranışların artması narahatlıq doğurur. Pasiyentin öz hüquqlarını və müəssisədəki davranış qaydalarını bilməsi, o cümlədən də tibb personalının işində qaydalara və təlimatlara uyğun hərəkət etməsi qarşıdurma və neqativ halların qarşısını almaq üçün ən yaxşı çıxış yoludur”.

Millət vəkili hesab edir ki, bu cür halların tənzimlənməsində daha çox müəssisənin məsuliyyəti ön plana çıxarılmalıdır: “Bizdə hətta xırda texniki proseslərə görə də çox vaxt həkimlə pasiyent qarşı-qarşıya gəlir. Bütün məsələlər həkimdən və digər tibb personalından tələb olunur. Düşünürəm ki, xəstə-həkim-tibb münasibətlərinin tənzimlənməsində “Xəstə xidmətləri şöbəsi”nin rolu artmalı və bu proseslər onlar tərəfindən tənzimlənməlidir. Həkim - həkim deontologiyasına, tibb işçisi - tibb işçilərinin davranış qaydalarına uyğun şəkildə addımlar atmalı və peşəkar vəzifə borclarını həyata keçirməlidir. Biz çox vaxt münasibətlərin gərginləşməsini adi prosedur qaydalardakı pozuntularla başladığını görürük. Burada cavabdeh şəxs kimi həkim yox, hüquqi şəxs olaraq klinikaların cavabdehlik daşıması çox önəmlidir. Dünyanın əksər ölkələrində bu proseslərdə hüquqi şəxs olan müəssisə məsuliyyət daşıyır. Pasiyent belə hallarla üz-üzə qaldıqda ilk növbədə xəstəxana rəhbərliyinə müraciət etməlidir. Əgər hadisədə inzibati pozuntu varsa, Səhiyyə Nazirliyinə, hüquq-mühafizə orqanlarının müdaxilə edəcəyi bir durum varsa, hüquq-mühafizə orqanlarına müraciət olunmalıdır”.



Müşfiq Məmmədli

### “Xəstəxana hüquqi baxımdan məsuliyyət daşıyır”

Professor Adil Qeybulla isə hesab edir ki, ümumiyyətlə, bu cür məsələlər qanunla tənzimlənməlidir: “Həkim etikası kodeksi” həkimlə xəstə, xəstə ilə tibb bacısı və başqa personal arasında münasibətləri tənzimləməlidir. Bu sənəddə elə maddələr var ki, pozulduğu halda birbaşa məsuliyyət yaradır. Buna görə də bu cür halları hansısa Hippokrat andına və ya mənəvi prinsiplərə bağlamaq yox, qanunla tənzimləmək lazımdır”.

Həkim-cərrah bildirir ki, əgər xəstəxana şəraitində xəstə ilə kobud davranılıbsa və lazımi diqqət göstərilməyibsə, buna görə xəstənin əmək qabiliyyətində və ya səhhətində problem yaranıbsa, xəstəxana hüquqi məsuliyyət daşıyır: “Fikrimcə bizdə də “Həkim etikası kodeksi” qəbul edilməlidir ki, bu cür məsələlər birdəfəlik çözülsün. Əks halda, belə hallar davam edəcək. Bu kodekslə həm də həkimin, tibb bacısının hüquqları qorunur. Kimsə özünə artıq nəvaziş istəyə, yaxud da başqa tələblər qoya bilməz. Mən bunu 90-cı illərdən deyirəm. Amma təəssüf ki, bizdə tibb kollektivi, həkimlə xəstə arasında hüquqi münasibətlər uzun illərdir tənzimlənməmiş qalır”.



Adil Qeybulla

### “Qeyri-müəyyənlik vətəndaş cəmiyyətini də narahat edir”

Pasiyent Təşkilatları İttifaqının sədri Ayaz Hüseynov bildirir ki, həkim-pasiyent münasibətlərindəki qeyri-müəyyənlik vətəndaş cəmiyyətini də narahat edir: “Biz 2021-ci ildən bəri dövlət səhiyyə qurumu, həkim və pasiyent təşkilatlarının birgə çalışmalarının faydasını göstərməyə çalışırıq. İlk dəfə keçirdiyimiz forumda pasiyentlərin hüquqlarının qorunması ilə bağlı beynəlxalq təcrübəyə əsaslanan bəyannamə qəbul olundu. Biz bu sənədi aidiyyəti dövlət qurumlarına təqdim etdik. Düşünürük ki, bu sahədə bəzi qanunların yenlənməsi vacibdir: pasiyentin vaxtına hörmət, təhlükəsiz müalicənin təminatı, xəstəni ağrı və əzabdan qurtarmaq kimi məsələlər həll edilməlidir. Bir sıra məqamlar var ki, onlara yenidən baxılmalıdır. Son vaxtlar müşahidə etdiyimiz xoşagəlməz hallar da bu cür hadisələrdir. Xəstə-həkim münasibətləri sırf qanun çərçivəsində olsa, bu cür xoşagəlməz hadisələr də baş verməz”.

Təşkilat rəhbəri hesab edir ki, özəl klinikaların fəaliyyətinə, o cümlədən orada çalışan həkimlərə nəzarətin artırılması da vacibdir. Həmçinin həkim-pasiyent münasibətlərində tibb işçilərinin də hüquqlarının qorunması diqqət mərkəzində olmalıdır: “Bəzən pasiyent tərəfindən də həkimə qarşı müəyyən xoşagəlməz davranışlar baş verir. Qanunvericilikdə olan boşluqlar buna imkan yaradır. Təbii ki, bu sahədə nəzarət mexanizminin gücləndirilməsi, pasiyent hüquqlarına yenidən baxılması, müstəqil ekspertizanın yaradılması çox vacibdir. Paralel olaraq həkimlərin də hüquqlarının qorunması diqqət mərkəzində olmalıdır. Bunu təmin edə bilsək, belə xoşagəlməz hadisələr də baş verməyəcək. Həm tibb müəssisəsinin, həm həkimin, həm də pasiyentin məsuliyyəti olacaq”.



Ayaz Hüseynov

# UŞAQ QİDALARINDA GİZLİ RİSKLƏR

Uşaq qidalarının təhlükəsizliyi ilə bağlı narahatlıqlar yenidən gündəmə gəlib. Mütəxəssislər bildirirlər ki, risklər təkcə istehsalda deyil, daşınma və saxlanma mərhələlərində də yarana bilər. Valideynlərə seçim zamanı uşaq qidasının etiket məlumatlarına və saxlanma şəraitinə xüsusi diqqət yetirmək tövsiyə olunur.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Uşaq qidalarının keyfiyyəti ilə bağlı narahatlıqlar uzun illərdir gündəmdədir. Son günlər "Nestlé" şirkətinin körpə və erkən yaşlı uşaqlar üçün nəzərdə tutulmuş bəzi məhsulları ehtiyat tədbiri olaraq geri çağırması bu mövzunu yenidən aktuallaşdırıb. Belə ki, Avstriya, Danimarka, Finlandiya, Almaniya, İrlandiya, İtaliya, İsveçrə və Birləşmiş Krallıqda "SMA", "BEBA", "ALFAMINO", "Pre NAN" və digər ticarət nişanları altında istehsal olunan məhsulların müəyyən partiyaları dövriyyədən çıxarılıb. Geri çağırmaya səbəb istehsal prosesi zamanı məhsulların "Bacillus cereus" bakteriyasının ifraz etdiyi "cereulide" toksini ilə çirklənmə riskdir. Bu hadisə fonunda Azərbaycan bazarında satılan uşaq qidalarının təhlükəsizliyi və nəzarət mexanizmləri ilə bağlı suallar da aktuallaşıb.



### "2025-Cİ İLDƏ İKİ UYĞUNSUZLUQ FAKTI AŞKARLANIB"

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən bildirilib ki, idxal olunan qida məhsulları, o cümlədən uşaq qidaları üzərində risk səviyyəsindən asılı olaraq müəyyən edilmiş dövriliklə fiziki nəzarət həyata keçirilir: "Bu nəzarət zamanı məhsullar laboratoriya tədqiqlərinə cəlb olunur, həmçinin təhlükəsizlik, minimum keyfiyyət göstəriciləri və orqanoleptik xüsusiyyətlər üzrə yoxlanılır".

Qurumun məlumatına görə, 2025-ci ildə uşaq qidaları üzrə ümumilikdə iki uyğunsuzluq faktı aşkarlanıb. Bir halda məhsul partiyası geri qaytarılıb, digər halda isə məhv edilib.

### "GERİ ÇAĞIRMA HƏR ZAMAN MƏHSULUN ZƏRƏRLİ OLMASI DEMƏK DEYİL"

Qida təhlükəsizliyi üzrə mütəxəssis Asim Vəliyevin sözlərinə görə, uşaq qidaları ilə bağlı narahatlıqlar hər zaman gündəmdədir: "Uşaqların immunitet sistemi hələ inkişaf mərhələsində olduğu üçün risklərə daha açıqdır. Nəzərə almaq lazımdır ki, geri çağırma hər zaman məhsulun zərərli olması demək deyil, əksər hallarda riskin qarşısını vaxtında almaq üçün atılan addımdır. Geri çağırmalar əsasən bir neçə səbəbdən həyata keçirilir. Laborator analizlər zamanı normadan kənar göstəricilərin aşkarlanması, istehsal xəttində texniki nasazlıq, etiketləmə xətası və ya xammalın təhlükəsizliyi ilə bağlı şübhələr buna nümunədır. Bəzi hallarda hətta potensial risk ehtimalı da geri çağırma üçün kifayət edir. Bu da istehsalçının məsuliyyətli yanaşmasının göstəricisi hesab olunur".

## "ƏSAS MEYAR BAHALI OLMASI DEYİL"

A.Vəliyev bildirib ki, rəsmi idxal olunan məhsullar bazara sənədlər, laborator analizlər və uyğunluq göstəriciləri əsasında buraxılır: "Lakin bu, bütün məhsulların tam risksiz olduğu anlamına gəlmir. Daşınma, saxlanma və satış mərhələlərində də problemlər yarana bilər. Uşaq qidalarında ən çox rast gəlinən risklər mikrobioloji çirklənmə ilə bağlıdır. Bakteriyalar, kif göbələkləri və onların toksinləri körpələr üçün xüsusilə təhlükəlidir. Digər risklərə ağır metalların iz miqdarı, düzgün göstərilməyən allergenlər, şəkər və duzun normadan artıq olması daxildir. Bəzən qablaşdırma materialı da risk mənbəyinə çevrilə bilər".

Mütəxəssis bildirdi ki, valideynlər uşaq qidası seçərkən ilk növbədə etiket məlumatlarına diqqət etməlidirlər: "Məhsul yaşa uyğun olmalı, tərkibi sadə və aydın göstərilməlidir. Şəkər, süni dadlandırıcı və rəngləndiricilərdən mümkün qədər uzaq durmaq tövsiyə olunur. Son istifadə tarixi və qablaşdırmanın bütövlüyü mütləq yoxlanmalıdır. Məhsul açıldıqdan sonra üzərində göstərilən müddətə əməl edilməlidir. Bəzən məhsulun qiymətinin yüksək olması onun daha keyfiyyətli olduğu fikrini yaradır. Lakin "premium" və bahalı məhsulların avtomatik olaraq daha təhlükəsiz olduğu düşüncəsi düzgün deyil. Qiymət çox vaxt brend, marketinq və qablaşdırma ilə bağlı olur. Əsas meyar məhsulun tərkibi, istehsal nəzarəti və düzgün saxlanma şəraitidir. Bəzən daha sadə və münasib qiymətli məhsullar daha təhlükəsiz ola bilər".



Asim Vəliyev

## "MƏHSULLAR YALNIZ ETİBARLI MƏNBƏLƏRDƏN ALINMALIDIR"

Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova bildirdi ki, xüsusilə saxlanma zamanı temperatur rejimi pozulduqda, məhsul günəş şüaları altında qaldıqda və ya qablaşdırma açıldıqdan sonra uzun müddət istifadə edildikdə bakteri-yaların çoxalması riski artır. Bu isə azyaşlılar üçün təhlükəlidir. M.Hüseynovanın sözlərinə görə, valideynlər uşaq qidası seçərkən ilk növbədə pediatrın tövsiyələrini nəzərə almalıdırlar: "Qida uşağın ayına və yaşına uyğun təyin edilməlidir. Etiket məlumatlarında istehsalçı şirkət barədə ətraflı məlumat, məhsulun tərkibi, saxlanma şəraiti, istehsal tarixi və son istifadə müddəti mütləq göstərilməlidir. Məhsul alınarkən qablaşdırmada zədələnmə, rəng və ya görünüşdə dəyişiklik müşahidə olunarsa, belə məhsullar istifadə edilməməlidir. Allergiyaya meyilli uşaqlar üçün isə xüsusi tərkibli məhsullar və ya "premium" kateqoriyalı qidalar təyin oluna bilər, buna da diqqət yetirilməlidir".



Məhsəti Hüseynova

Pediatr Gülnar Abdullayeva isə düşünür ki, uşaq qidalarını hər hansı bir alternativlə əvəz etmək mümkün deyil: "Uşaqlara qida yazarkən məhsulun apteklərdən alınmasını tövsiyə edirik. Saxlanma yerinə və şəraitinə diqqət edilməsini bildiririk. Süni qidaların alternativi yoxdur. Bəzi valideynlər bunu keçi südü ilə əvəz edirlər, amma bu, yolverilməzdir. Uşaq qidası hər bir uşağa fərdi olaraq seçilir. Bəzi uşaqlarda həzm sistemi ilə bağlı şikayətlər - qəbizlik, qusma, ishal olduqda, ona uyğun qida təyin edirik. Bəzi uşaqlar allergik olur, bu uşaqlara qida seçərkən də bütün hallar nəzərə alınmalıdır. Süni qidalar ucuz və ya bahalı olmasından asılı olmayaraq, əgər standartlara uyğundursa, təhlükəli hesab edilmir. Elə uşaq ola bilər ki, bahalı, "premium" qida ona uyğun olmasın və allergiya versin. Ən yaxşı qida uşağın orqanizminə uyğun gələn qidadır".



Gülnar Abdullayeva

## Müstəqillik dövründə ölkədə ən aşağı doğum göstəricisi ötən il qeydə alınıb

# ÇOXUŞAQLILIQDAN AZUŞAQLILIĞA KEÇİD

**Əgər əvvəllər gənclər təhsil alaraq nikaha daxil olurdularsa, bu gün daha çox müstəqil həyat tərzinə üstünlük verirlər. Təhsil, karyera, sosiallaşma, özünü inkişaf etdirmək və maddi stabillik gənclərin əsas məqsədləridir. Bu isə nikahların və uşaqların sayının azalmasına gətirib çıxarır.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Son illərdə Azərbaycanda əhalinin artım tempində müşahidə olunan zəifləmə ciddi narahatlıq doğurur. Statistik göstəricilərə görə, müstəqillik əldə edildikdən sonra ölkədə ən aşağı doğum göstəricisi ötən il qeydə alınıb. İlkin məlumatlara görə, ölkədə ilk 10 ayda 80 802 uşaq dünyaya gəlib, ilin sonunda bu rəqəmin təxminən 95 000-ə çatacağı proqnozlaşdırılır. Maraqlıdır ki, 2024-cü ildə ölkədə 102 310, 2023-cü ildə 112 620, 2022-ci ildə isə 122 846 uşaq anadan olub. Hətta COVID-19 pandemiyası səbəbindən toy mərasimlərinə müəyyən məhdudiyyətlərin tətbiq edildiyi 2020-ci ildə 126 571, 2021-ci ildə isə 112 284 doğum qeydə alınıb.

### TƏHSİL, KARYERA, SOSİALLAŞMA...

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin baş məsləhətçisi Rafiq Mahmudov "Kaspi"qəzetinə açıqlamasında bildirdi ki, müasir dövrdə gənclər öz qarşısına yeni prioritetlər, məqsədlər qoyurlar. Əgər əvvəllər gənclər təhsil alaraq nikaha daxil olurdularsa, bu gün daha çox müstəqil həyata tərzinə üstünlük verirlər. Onlar qarşılarına qoyduqları məqsədlərə nail olduqdan sonra nikah barədə düşünməyə başlayırlar: "Təhsil, karyera, sosiallaşma, özünü inkişaf etdirmək və maddi stabillik gənclərin əsas məqsədləridir. Bu isə nikahların sayının azalmasına, nikah yaşının artmasına və nəticə etibarilə ailələrdə uşaqların sayının azalmasına gətirib çıxarır. Ailələrdə daha çox 1-3 uşağa üstünlük verilir. Bu tendensiya bir çox inkişaf etmiş ölkələrdə də müşahidə olunur və təbii prosesdir".



Rafiq Mahmudov

### SELEKTİV ABORTLARIN TƏBİİ ARTIMA TƏSİRİ

R.Mahmudov bildirir ki, son 10 il ərzində abortların artması faktoru da narahatedicidir: "Abortların yaş kateqoriyası üzrə bölgüsünə diqqət yetirsək görərik ki, 25-34 yaş arasında olan gənclər tərəfindən arzu olunmayan hamiləliyin qarşısının alınması preventiv vasitə kimi tətbiq olunur. Təəssüf ki, abortların bir hissəsi selektivdir. Bu gün Azərbaycanda hər 100 qız uşağına qarşı 112-114 oğlan uşağı dünyaya gəlir, bu da beynəlxalq normalara görə çoxdur. Demoqrafiyanın inkişafı üçün hər 100 qız uşağına 102-104 oğlan uşağı dünyaya gəlməlidir. USM-nin əsas istifadə istiqamətləri ananın və dölün sağlamlığının yoxlanılması və izlənilməsidir. Lakin təəssüf ki, valideyn olmağa hazırlaşan şəxslər USM aparan həkimə dölün cinsiyyətini müəyyən olunması üçün müraciət edirlər".

Qurum rəsmisi vurğulayır ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq bütün bölgələrdə və paytaxtda maarifləndirmə tədbiləri təşkil olunur.



## "Azalma tendensiyası 5-6 il davam edəcək"

Coğrafiya İnstitutunun demoqrafiya və əhali coğrafiyası şöbəsinin müdiri Etibar Bədəlov deyir ki, Azərbaycanda 1995-2004-cü illər arasında doğum səviyyəsi iki dəfədən çox azalmışdı. Hazırda həmin dövrdə doğulan nəsil ailə qurmaq yaşına çatıb: "Bu isə o deməkdir ki, indi ailə quracaq gənclərin sayı əvvəlki illərlə müqayisədə xeyli azdır. Nəticə etibarilə bu amil ailə quruculuğunu zəiflədir, nikahların sayının azalmasına səbəb olur və bu azalma birbaşa doğum göstəricilərinə də təsir edir. Bu demoqrafik azalma tendensiyası təxminən 5-6 il davam edəcək, daha sonra isə müəyyən artım müşahidə oluna bilər. Lakin bu artım əvvəlki dövrlərdəki səviyyəyə çatmayacaq. Əgər göstəriciləri faizlə ifadə etsək, 10 il əvvəl əhalinin artım tempi 1,1-1,2 faiz təşkil edirdisə, hazırda bu rəqəm 0,35-0,4 faiz səviyyəsinə düşüb. Yəni artım tempi təxminən üç dəfə azalıb. Azalma əsasən şəhər əhalisi üzrə özünü göstərir. Belə ki, şəhərlərdə təbii artım səviyyəsi 0,15 faizə qədər enib, doğum göstəriciləri də əhəmiyyətli dərəcədə aşağı düşüb. Əgər əvvəllər hər min nəfərə düşən doğum sayı 10-11 nəfər idisə, son 4-5 ildə bu göstərici azalaraq, bu il təxminən 9 nəfər səviyyəsinə düşüb. Bu isə artıq ciddi demoqrafik problem kimi qiymətləndirilir".

## Maddi və sosial yardım, icra mexanizmi...

Mütəxəssisin sözlərinə görə, bu tendensiyanın qarşısının alınması üçün ardıcıl və məqsədyönlü demoqrafik siyasət yürüdülməlidir: "Bu demək olar ki, bütün dövlətlərdə tətbiq olunur. Əsas hədəf gənclər üçün əlverişli şəraitin yaradılması, ailə quruculuğunun təşviqi və dövlətin bu prosesdə fəal iştirak etməsidir. Ailə qurmaq istəyən gənclərə dövlət dəstəyi göstərilməli, uşaqlar dünyaya gəldikdən sonra ailələrə maddi və sosial yardım mexanizmləri işlək olmalıdır. Bunlar dövlət təcrübəsində geniş yayılmış və effektiv nəticə verən alətlərdir".

## "O dövrdə Azərbaycan dünyanı təəccübləndirirdi"

Coğrafiya üzrə fəlsəfə doktoru Saleh Nağıyev deyir ki, 1960-cı illərdə Azərbaycan təbii artım göstəricisinə görə dünyada birinci yer tuturdu. Həmin dövrdə hər min nəfərə 44 uşaq doğulurdu, bu isə bütün dünyanı təəccübləndirirdi: "İndiki vəziyyət tam fərqlidir. Hazırda ölkədə hər min nəfərə düşən doğum sayı təxminən 6-7 nəfər səviyyəsinə enib. Bu, ciddi demoqrafik tendensiyadır. Amma bu problem yalnız Azərbaycana xas deyil. Bütün dünyada oxşar demoqrafik azalma müşahidə olunur".

Mütəxəssis bildirir ki, sosial-iqtisadi durum demoqrafik proseslərə ciddi təsir göstərir: "1990-cı illərdə 8-9 uşaqlı ailəni saxlamaq mümkün idisə, bu gün bu, demək olar ki, real deyil. Çoxuşaqlılıqdan azuşaqlılığa keçid, boşanmaların artması və nikahların azalması demoqrafik disbalansın əsas səbəblərindəndir. Hazırda təhlükə mənbələrindən biri boşanmaların artmasıdır, digəri isə gənclərin ailə qurmağa marağının azalmasıdır. Bu iki amil doğum göstəricilərinə və ailə modelinə təsir edir. Amma çıxış yolları var".



Saleh Nağıyev

# KİNOMUZ ÜÇÜN YAŞIL İŞIQ?




**Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Mədəniyyəti-2040" Mədəniyyət Konsepsiyasında milli kinomuzla bağlı görüləcək işlər əksini tapıb. Kino adamları sənədi müsbət qiymətləndirir, amma nəticənin görüləcək işlərdən asılı olacağını deyirlər.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Kino sənayesində keyfiyyətə və milli-mənəvi dəyərlərə üstünlük verilməsinə əsaslanan yeni dövlət sifarişi sisteminin yaradılması məsələsi aktuallaşıb. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Mədəniyyəti-2040" Mədəniyyət Konsepsiyasında kinomuzla bağlı görüləcək işlər əksini tapıb. Sənədin nəzəri cəhətdən dəqiq və mühüm olduğunu qeyd edən kino adamları bu sahədə çox işlərin görülməsinə ehtiyac olduğunu deyirlər.

## MÜTƏXƏSSİS AZLIĞI, DUBLYAJ PROBLEMİ, KÖHNƏLMİŞ QANUN...

Avropa Kino Akademiyasının üzvü, rejissor, ssenarist Kamran Qasımovun sözlərinə görə, "Mədəniyyət Konsepsiyası-2040" mütərəqqi sənəddir: "Sənəddə çox mühüm məsələlər var. Məsələn, dublyaj məsələsi çox vacibdir. Amma bunun üçün ilkin mərhələdə dövlətin dəstək mexanizmi olmalıdır ki, insanlar kinoteatra gəlib filmlərə rahat şəkildə baxa bilsinlər. Biz bunun üçün studiyaların formalaşmasına kömək etməliyik. Filmlərin dublyajı prosesində peşəkar studiyaların yaranmasına münbit şərait olmalıdır".

Rejissorun fikrincə, mütəxəssis məsələsinə də diqqət yetirilməlidir: "Mütəxəssislərimiz çox azdır. Kinostudiya filmi alır və o ekran əsərini dublyaj etmək hüququ əldə edir. Amma o filmin dublyajı neçəyə başa gələcək? Yayımdan əldə etdiyi gəlir ona bunu etməyə imkan verəcəkmi? Əlverişli subsidiya bu məqamda lazımdır".

K.Qasımov filmlərin istehsalına olan dəstəkdə Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) fəaliyyətini yüksək qiymətləndirir: "Agentlik düzgün siyasət aparır, əsas problemlər "Kinematoqrafiya haqqında qanun"un köhnəlməsindən qaynaqlanır. 1998-ci ildə qanun Ümummilli Lider Heydər Əliyevin imzası qəbul olunub. O dövr üçün bu, inqilab idi, amma bu gün - üzərindən 28 il keçəndən sonra biz yeni tendensiyalar haqqında da fikirləşməliyik. Qanunda filmlərin istehsalına dəstək prosesi elə olmalıdır ki, kondisioner quraşdıran şirkətlə film istehsal edən şirkətin satınalma prosesi bir qədər fərqlənsin. Bu, publik hüququ şəxs olaraq ARKA-nın daha geniş fəaliyyət göstərməsinə imkan verər. Arzu edirik ki, bütün filmlər ekspert şurasından pitcinq yolu ilə keçirilsin. Mütləq şəkildə filmlərin ssenarilərinə diqqət yetirilməlidir".



Kamran Qasımov

## "Film çəkilişi sifarişi müstəqil istehsalçılara veriləcək"

Kinodramaturq bildirdi ki, bir filmin çəkilməsi üçün 60-70-ə qədər ikinci dərəcəli mütəxəssis çalışır, amma onları yetişdirən müəssisəmiz yox idi: "Bu yaxınlarda Zağulbada belə bir müəssisə açıldı. Artıq həmin mütəxəssislər hazırlanacaqlar".

İ.Fəhminin sözlərinə görə, hazırda "Azərbaycan" kinostudiyasına istehsalçı qurum kimi yanaşılmır: "Kinostudiya daha çox filmlərin çəkilməsinə texniki dəstək göstərəcək, pavilyon, texnika icarəyə verəcək. Yeni yanaşmaya görə, kinostudiyanın birbaşa film istehsal etmək səlahiyyəti olmayacaq. Filmlər çəkmək imkanı daha çox müstəqil istehsalçılara veriləcək".

İ.Fəhmi hesab edir ki, kinoya maliyyənin artırılması da istisna deyil: "Kinoya maliyyə ayrılması vacibdir. Amma heç kəs düşünməsin ki, bu il kinoya ayrılan vəsait bir milyon manat artırıldı, gələn il onun nəticəsini görəcəyik. Kinoda nəticəni görmək üçün 4-5 il vaxt lazımdır".

Kinorejissor Yavər Rzayev isə hesab edir ki, konsepsiya haqqında danışmaq hələ tezdir: "Sənəddə çox mühüm məsələlər yer alıb, amma bunların həyata keçməsinə vaxt lazımdır. Ona görə indidən nəsə demək çətindir..."



Yavər Rzayev

**Foto:** Rüfət Mikayılov /Global Media Group

## "Bu çəkilən kino kiməsə lazımdırmı?"

Kinodramaturq İlqar Fəhminin fikrincə, hazırkı proqram dövrün tələblərini əks etdirir: "Bugünkü reallıqları nəzərə almaq lazımdır. 10 il bundan əvvəlki və indiki texniki imkanlar fərqlidir, yayım imkanları dəyişib. Azərbaycan kinosunun həm daxildə təsirini gücləndirmək, həm də ölkə kənarında təbliğ etmək üçün rəqabətə davamlı audiovizual məhsullar istehsal edilməlidir. Bir-iki il ərzində bilinəcək ki, proqrama uyğun işlər düzgün gedir, yoxsa yenə də hansısa çatışmazlıqlar var". İ.Fəhmi hesab edir ki, sənəddə yer alan məsələlərin reallaşması hər birimizdən asılıdır: "Hər kəs üzərinə düşən vəzifəni yerinə yetirsə, həqiqətən də istədiyimizə nail olacağıq". Kinodramaturq hesab edir ki, kinomuzun hazırkı vəziyyəti həm də kino adamlarının özündən qaynaqlanır: "Heç kəs özündə bir dəyişiklik etmək istəmir, işini müasir dövrə uyğunlaşdırmağa çalışmır. Şikayətlər ancaq "maliyyə verin, mən kino çəkim"dən ibarətdir. Bu çəkilən kino kiməsə lazımdırmı? 2005-ci ildən bu yana dövlətin kinoya yardımı olub, xeyli sayda da film çəkilib. Amma o filmlərin əksəriyyəti təqdimatda göstərilib, əl çalmışıq, tərifləmişik, vəssalam. Biz kinomuzun təxminən 10 illik bir dövrünü itirdik. Həmin müddətdə onlarla film çəkildi. Amma o filmlər xalqın qabağına çıxa bilmədi. Yalnız bir dəfə təqdimat edirdilər. Telekanallarda da qəribə bir yanaşma var idi. Onlar öz efirlərinə maliyyəsiz heç nə buraxmırdılar. Nazirlik də deyirdi ki, mən vəsait yatırıb istehsal etdiyim materialı verirəm, siz mənə pul verin. Bu iki yanaşmanın arasında qalmışdıq və heç bir filmimiz efirə çıxmırdı. "Youtube" platforması genişlənəndən sonra o filmlərin bəziləri nümayiş olundu. Bir sözlə, o dövrdə çəkilən filmlər diqqətdən kənarda qaldı. Adamlarda da belə rəy yarandı ki, daha bizdə kino yoxdur. Amma ildə 4 bədii, 6-7 qısametrajlı bədii film, bədii-sənədli və sənədli filmlər çəkilirdi. Ona görə "20 ildir kinomuz yoxdur" yanaşması səhvdir. Əslində 20 ildir kinomuz var, sadəcə, toplumun bundan xəbəri yox idi".



İlqar Fəhmi



HİNDUŞKA ƏTİ DAHA ÇOX DELİKATES KİMİ QƏBUL OLUNUR VƏ ƏSASƏN RESTORANLARDA TƏQDİM EDİLİR

# BAZARDA BOLLUQ, SÜFRƏDƏ DARLIQ

**Azərbaycanda quş əti bazarı çoxşaxəli olsa da, struktur baxımından qeyri-bərabər inkişaf edir. Toyuq əti bazarın əsas dayağı olaraq qalır, hinduşka, qaz, ördək və bildirçin əti isə daha çox əlavə, alternativ seçim rolunu oynayır.**



SEVİNC ABBASOVA

Azərbaycanda quş əti bazarı illərdir ki, əsasən toyuq əti ilə assosiasiya olunur. Marketlərdə, bazarlarda, restoran menyularında ən çox rast gəlinən quş əti məhz toyuqdur. Lakin bu sahə yalnız bir məhsulla məhdudlaşmır. Bazarlarda hinduşka, qaz, ördək və bildirçin kimi digər quş ətlərinə də rast gəlinir. Amma onların bazardakı mövqeyi və tələbat səviyyəsi toyuq əti ilə müqayisədə xeyli zəifdir.

Ekspertlər hesab edirlər ki, Azərbaycanda quş əti bazarı çoxşaxəli olsa da, struktur baxımından qeyri-bərabər inkişaf edir. Toyuq əti bazarın əsas dayağı olaraq qalır, hinduşka, qaz, ördək və bildirçin əti isə daha çox əlavə, alternativ seçim rolunu oynayır.

Mütəxəssislərin fikrincə, bu sahədə istehsalın genişləndirilməsi və sənaye əsaslı quşçuluğun digər növlər üzrə inkişafı həm qiymətlərin sabitləşməsinə, həm də istehlakın artmasına şərait yarada bilər. Əks halda, bu quş ətləri uzun müddət bazarda məhdud tələbat və yüksək qiymət seqmentində qalmaqda davam edəcək.

## YERLİ MƏHSUL ƏSAS PAY SAHİBİDİR

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov bildirir ki, Azərbaycanda quş əti bazarında daxili tələbat əsasən yerli istehsal hesabına qarşılanır. Onun sözlərinə görə, qırmızı ətlə müqayisədə toyuq əti istehsalını qənaətbəxş hesab etmək olar: "Ölkədə bu sahədə peşəkar şəkildə fəaliyyət göstərən quşçuluq fabrikləri mövcuddur, eyni zamanda kiçik sahibkarların yaratdığı təsərrüfatlar da bazarın formalaşmasında rol oynayır".


Mircavid Həsənov

Mircavid Həsənovun fikrincə, Azərbaycan quşçuluq sahəsində təkcə daxili bazarla kifayətlənməməlidir: "Bu sahənin ixrac potensialı mövcuddur və quşçuluq üçün geniş torpaq sahələrinin tələb olunmaması əlavə üstünlükdür. Lakin əsas problem yem rasionu ilə bağlıdır. Yem məhsullarının böyük hissəsi xaricdən idxal olunur. Əgər ölkə yemlə özünü təmin edə bilsə, yerli quş əti xarici bazarlara da çıxa bilər".

Ekspert diqqətə çatdırır ki, toyuqdan başqa digər quş növləri üzrə Azərbaycanda iri sənaye təsərrüfatları mövcud deyil. Hinduşka, qaz və ördək əsasən kənd şəraitində, kiçik ailə təsərrüfatlarında yetişdirilir və istehsal həcmi məhduddur. Bu da qiymətlərdə ciddi fərqlərin yaranmasına səbəb olur. Onun sözlərinə görə, bazarda toyuq əti bol olduğu üçün istehlakçılar əsasən bu məhsula üstünlük verirlər: "İnsanlar istənilən vaxt marketdən hinduşka, qaz və ya ördək əti tapa bilmədikdə, alternativ olaraq toyuq alırlar".

## "İXTİSASLAŞMIŞ İRİ TƏSƏRRÜFATLARIN YARADILMASI MÜMKÜNDÜR"

Mircavid Həsənov hesab edir ki, bu sahədə ixtisaslaşmış iri təsərrüfatların yaradılması mümkündür: "Məsələn, hinduşka istehsalı ilə məşğul olan müəssisələr yaradıla bilər. Hazırda hinduşka əti daha çox delikates məhsul kimi qəbul olunur və əsasən restoranlarda təqdim edilir. İstehsal kütləvi olmadığı üçün qiyməti yüksəkdir və bazarda kiloqramı orta hesabla 17-18 manat civarındadır. Azərbaycanın geniş sulu əraziləri ördəkçiliyin inkişafı üçün də böyük imkanlar yaradır. Lakin bu sahədə biznes qurmağa maraq zəifdir. Bu, daha çox biznes təfəkkürü ilə bağlı məsələdir. Sahibkarlar gəlirli olduğunu gördükləri sahələrə yönəlirlər və hazırda toyuqçuluq daha cəlbedici hesab olunur. Halbuki beynəlxalq təcrübədə, məsələn, Çində ördək broylerlərinin geniş yayılması bunun mümkün olduğunu göstərir".

## QUŞ ƏTİNƏ TƏLƏBAT ÇOX YÜKSƏKDİR

İqtisadçı-ekspert Akif Nəsirli isə bildirir ki, Azərbaycanda quş ətinə tələbat kifayət qədər yüksəkdir: "Ölkədə formalaşmış bir tendensiya var: hər hansı məhsula tələbat artan kimi, qiymətlər sürətlə yüksəlir. Bu hal quş əti bazarında da müşahidə olunur".

Ekspert qeyd edir ki, ümumi qiymət artımı inflyasiya ilə bağlıdır, lakin quş əti bazarında bahalaşma daha kəskin hiss olunur. Bununla yanaşı, həm daxili istehsalda, həm də idxalda artım müşahidə edilir.

Ekspert bildirir ki, istehlakçılar arasında əsas üstünlük hələ də toyuq ətinə verilir. Hinduşka əti isə daha çox özünəməxsus seqmentə malikdir və əsasən bayram günlərində alınır. Digər quş ətləri isə bəzən alternativ seçim kimi bazara daxil olur: "Məsələn, alıcı toyuq əti tapa bilmədikdə ördək və ya digər quş ətlərinə üstünlük verir və bazar bu yolla tarazlaşır".

## "İLLİK TOYUQ ƏTİ İSTEHLAKI 18-20 KİLOQRAMDIR"

Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası İctimai Birliyinin rəhbəri Mürvət Həsənli də bildirir ki, ölkədə ən çox istehlak olunan quş əti növü toyuqdur. Onun sözlərinə görə, adambaşına illik toyuq əti istehlakı təxminən 18-20 kiloqram təşkil edir. Digər quş ətləri arasında isə toyuqdan sonra ən çox hinduşka istehlak olunur. Bu məhsullar əsasən qış mövsümündə süfrələrdə yer alır. Ördək və qaz ətindən istifadə də az miqdarda, mövsümi xarakter daşıyır. Bildirçin isə sənaye üsulu ilə istehsal olunur və bazarda müəyyən alıcı kütləsinə malikdir.


Mürvət Həsənli

Mürvət Həsənli qeyd edir ki, ayrı-ayrı regionlarda, məsələn, Zaqatalada hinduşka, bəzi rayonlarda isə ördək təsərrüfatları fəaliyyət göstərir. Bildirçin istehsalı isə Bakıətrafı ərazilərdə və bir sıra rayonlarda sənaye əsaslı şəkildə aparılır. Hazırda xarici bazarlara əsasən toyuq məhsulları ixrac olunur və yaxın perspektivdə, xüsusilə Çin bazarına ixracın artırılması hədəflənir. Onun sözlərinə görə, 2016-cı ildən bu günədək toyuq ətində ciddi qiymət sıçrayışı müşahidə olunmayıb. Digər quş növləri üzrə isə sənaye istehsalının məhdudluğu səbəbindən qiymətlərin tənzimlənməsi mümkün olmur.

# SAQQIZ SEÇİMİNDƏ KEYFİYYƏT ÖN PLANDA

Ötən il Azərbaycanda saqqız idxalında azalma müşahidə olunub. Bu dəyişiklik istehlakçıların daha keyfiyyətli və baha məhsullara maraq göstərməsi, logistika xərclərinin artması, qlobal bahalaşma kimi amillərlə əsaslandırılır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




2025-ci ilin ilk 10 ayı ərzində Azərbaycana 456,58 ton saqqız (şəkərli və ya şəkərsiz) idxal edilib. İdxalın ümumi dəyəri iki milyon 257,95 min ABŞ dolları olub. Bu göstəricilər 2024-cü ilin eyni dövrü ilə müqayisədə miqdar baxımından azalma, dəyər baxımından isə artım deməkdir. Xatırladaq ki, 2024-cü ilin yanvar-oktyabr aylarında ölkəyə 511,66 ton saqqız idxal olunub, idxalın dəyəri iki milyon 156,22 min ABŞ dolları təşkil edib. 2025-ci ildə saqqız idxalının əsas hissəsi Türkiyə (307,73 ton), Rusiya (52,47 ton) və Türkmənistan (35,62 ton) hesabına formalaşıb. Bəs, görəsən, saqqız idxalında miqdarın azalması, dəyərin artması nə ilə izah olunur?

### "UCUZ VƏ KÜTLƏVİ MƏHSULLAR AZALIR"

İqtisadçı-ekspert Akif Nəsirlinin sözlərinə görə, saqqız idxalının miqdar baxımından azalması, lakin dəyər baxımından artması bir neçə amilin eyni vaxtda təsiri ilə izah oluna bilər: "İlk baxışdan bu mənzərə saqqız istehlakının azalması kimi qiymətləndirilə bilər. Lakin statistik göstəricilərin daha detallı təhlili göstərir ki, söhbət birbaşa olaraq saqqız istifadə edənlərin sayının kəskin azalmasından getmir. Əksinə, mövcud rəqəmlər bazarda istehlak vərdişlərinin, məhsul strukturunun və tədarük mexanizmlərinin dəyişdiyini ortaya qoyur. Bu mənada saqqız bazarında baş verən prosesləri bazarın daralması deyil, transformasiyası kimi qiymətləndirmək daha doğru olar".

A.Nəsirli idxalın azalma səbəblərindən birini qiymət artımları ilə əlaqələndirir: "Əvvəla, 2025-ci ildə idxal olunan saqqızın orta qiymətində nəzərəçarpacaq artım müşahidə olunur. Belə ki, 2024-cü ilin ilk 10 ayında bir ton saqqızın orta idxal dəyəri təxminən 4 214 dollar olduğu halda, 2025-ci ildə bu göstərici artıq 4 945 dollara yüksəlib. Orta qiymətdəki bu artım idxal həcminin azalmasına baxmayaraq, ümumi idxal dəyərinin artmasına səbəb olub. Başqa sözlə, ucuz və kütləvi məhsulların payı azalır, onların yerini isə daha baha məhsullar tutur".

### "DÜNYADA BAŞ VERƏN PROSESLƏR SAQQIZA DA TƏSİR EDİB"

İqtisadçının fikrincə, bu dəyişiklik ilk növbədə idxal olunan məhsulların keyfiyyət və kateqoriya baxımından fərqlənməsi ilə bağlıdır: "Son illərdə şəkərsiz, vitaminli və xüsusi tərkibli saqqızlara maraq artmaqdadır. Bu kateqoriyaya daxil olan məhsullar adi saqqızlarla müqayisədə daha baha qiymətə idxal olunur. Premium brendlərə məxsus, qablaşdırması və marka dəyəri yüksək olan saqqızların idxalda payının artması da orta qiymətin yüksəlməsində mühüm rol oynayır. Nəticədə idxal strukturu aşağı qiymətli, kütləvi məhsullardan daha seçilmiş və bahalı məhsullara doğru dəyişir".

A.Nəsirli məhsulun qiymətinin artmasındakı digər əsas faktoru bahalaşmada görür: "İkinci mühüm amil qlobal iqtisadi proseslərlə əlaqədardır. Son illərdə beynəlxalq inflyasiya, logistika xərclərinin artması, xammal və enerji qiymətlərinin yüksəlməsi qida sənayesinin bütün seqmentlərinə təsir edib. Saqqız da gündəlik istehlak məhsulu olduğu üçün bu proseslərdən kənarda qalmayıb".

Müsahibimizin sözlərinə görə, üçüncü səbəb idxal coğrafiyasında müşahidə olunan dəyişikliklərlə bağlıdır: "Türkiyə hələ də Azərbaycanın əsas saqqız tədarükçüsü olaraq qalır. Lakin statistika göstərir ki, bu ölkədən idxal olunan saqqızın miqdarı əvvəlki dövrlə müqayisədə azalıb. Ölkələr üzrə idxal balansı dəyişdikcə, qiymət strukturu da dəyişir və bu, ümumi göstəricilərə birbaşa təsir edir".



Akif Nəsirli

### "Saqqız istehsalında dünyadan asılıyıq"

Ekspert onu da bildirdi ki, yerli istehsal amili də ümumi mənzərədə nəzərə alınmalıdır. Azərbaycanda saqqız istehsalı hazırda çox məhdud səviyyədədir: "Daxili bazarda satılan saqqızın əsas hissəsi xarici ölkələrdən idxal edilir. Bəzi qənnadı fabriklərində saqqız istehsalı həyata keçirilsə də, bu, epizodik xarakter daşıyır və həlelik sənaye miqyasında təşkil olunmayıb. Nəticədə daxili bazarın tələbatı əsasən idxal hesabına ödənilir. Bu məqam xüsusilə diqqət çəkir, çünki saqqız mürəkkəb və yüksək texnologiya tələb edən məhsul hesab olunmur".

A.Nəsirlinin fikrincə, saqqız istehsalı üçün kifayət qədər potensialımız mövcuddur: "Daxili istehsal bir tərəfdən idxaldan asılılığın azalmasına, digər tərəfdən isə valyutanın ölkə daxilində saxlanılmasına şərait yarada bilər. Eyni zamanda, bu sahədə istehsalın qurulması qənnadı sənayesində məhsul çeşidinin genişlənməsinə, mövcud istehsal infrastrukturunun diversifikasiyasına və əlavə məşğulluq imkanlarının formalaşmasına töhfə verə bilər".

### SAQQIZIN FAYDASI DA VAR, ZİYANI DA...

Saqqız istehlakına münasibətin dəyişməsində sağlamlıq amilləri də mühüm rol oynayır. Son illər istehlakçılar saqqızı yalnız vərdiş kimi deyil, fayda və riskləri nəzərə alınan vasitə kimi dəyərləndirməyə başlayıblar. Araşdırmalar göstərir ki, xüsusilə şəkərsiz saqqızlar müəyyən hallarda faydalı hesab olunur. Yeməkdən sonra qısa müddət ərzində saqqızdan istifadə ağızda selik ifrazını artırır. Bu isə qida qalıqlarının təmizlənməsinə və ağız boşluğunda turşuluğun azalmasına kömək edə bilər. Bu baxımdan saqqız dişlərin qorunması üçün əsas vasitə olmasa da, köməkçi rol oynaya bilər. Saqqız istehlakının mümkün mənfi tərəfləri də mövcuddur. Uzun müddət və tez-tez saqqız çeynəmək çənə oynaqlarında gərginlik yarada, bəzi hallarda isə baş və üz nahiyəsində narahatlığa səbəb ola bilər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
31 YANVAR ŞƏNBƏ 2026

Müasir futbolda 40 yaşında futbolçu görmək artıq istisna hesab olunmamalıdır. Bu, yeni normadır və atletin öz fiziki formasına sistemli yanaşmasının nəticəsidir. İdman elmi, tibbi imkanlar, taktiki dəyişiklik və peşəkar həyat tərzi birlikdə futbolçuların oynama müddətini uzadıb.

# FUTBOLUN DƏYİŞƏN YAŞ HƏDDİ



Əvvəllər futbolçu üçün yaş anlayışı mübahisə mövzusu belə deyildi. 30 yaşdan sonra eniş başlayır, 33-35 aralığında isə karyeranın başa çatması az qala qaçılmaz görünürdü. Klub rəhbərləri bu yaşdan yuxarı futbolçulara risk kimi yanaşır, azarkeşlər isə artıq həmin oyunçulara keçmişin xatirəsi kimi baxırdı. Futbolun yazılmamış qanunları vardı və onlardan biri də "yaşlı futbolçu ilə plan qurulmaz" prinsipi idi. Bir qədər qəribə görünsə də, bu gün futbol bu qanunları pozmaqdadır. Daha doğrusu, oyun dəyişib və onunla birgə yaş anlayışı da bir qədər fərqli mənaya malikdir.

### PARADOKSAL REALLIQ

Bu gün futbol klublarında 38-40 yaşında futbolçu görmək artıq sensasiya deyil. İndi əsas məsələ oyunçunun neçə yaşında olması yox, meydanda nə etdiyidir: oyuna nə qatır, komanda üçün hansı funksiyanı yerinə yetirir, hansı anlarda fərq yaradır.

41 yaşlı Luka Modriçin hələ də "Böyük beşlik"də çıxış etməsi, "Milan" kimi klubda əsas heyətin dəyişməz üzvü olması, oyunun ritmini müəyyən etməsi bunun ən bariz nümunəsidir. 39 yaşlı Lionel Messinin tempi əvvəlki illərlə müqayisədə aşağı düşsə belə, qərarvermə keyfiyyəti ilə hələ də oyunun taleyini dəyişə bilməsi, 41 yaşlı Kriştiano Ronaldonun fiziki durumunu gənc futbolçularla müqayisə ediləcək səviyyədə saxlaması və qollarını sıralaması da eyni məntiqin davamıdır.

Bu futbolçular sadəcə "hörmət naminə" meydanda qalmırlar. Onlar komandalarının oyun sistemində aparıcı fiqurlardır, taktiki planların mərkəzində dayanırlar. Ən vacibi isə təcrübələri hesabına həlledici anlarda məsuliyyəti üzərlərinə götürməyi bacarırlar. Məhz bu səbəbdən 41 yaşında "Portu" kimi ambisiyalı bir kluba keçən Tyaqo Silva müasir futbol reallığının istisnası təsiri bağışlamır.

Paradoks ondadır ki, futbol tarixinin ən sürətli dövrünü yaşayırıq. Oyun tempi yüksəlib, pressinq daha aqressiv xarakter alıb, meydanda boş zona anlayışı demək olar ki, yoxdur. Məntiqlə bu vəziyyətdə futbolçuların daha tez sıradan çıxacağı gözlənilərdi. Amma reallıq tam əksini göstərir. Futbolçular daha gec tükənir, pik formalarını daha uzun müddət qoruyub saxlaya bilirlər.

Mütəxəssislər hesab edirlər ki, "futbolçu ömrü"nün uzanması təsadüfi deyil. Düzgün planlama, yüklənmənin balanslaşdırılması, bərpa proseslərinə verilən önəm, qidalanma və fərdi hazırlıq proqramları bunun əsas səbəbləridir.

## ATLET FUTBOLÇULAR

Əvvəllər futbolçu daha çox məşq meydanında gördüyü işlə qiymətləndirilirdi. Kim daha çox qaçır, fiziki göstəricilərinə görə məşqdə fərqlənirdisə, o da ön plana keçirdi. Bu gün isə oyunçunun performans anlayışı daha fərqli mənaya malikdir. Hər bir futbolçu tam bir atletdir. Onun yuxu rejimi, qidalanması, bərpa prosesi, hətta gündəlik həyat tərzi performansın tərkib hissəsinə çevrilib. Mövsüm bitəndən sonra tam istirahət anlayışı demək olar ki, yoxdur. Çünki il uzunu turnirlər bir-birini əvəz etdiyi üçün futbolçunun istirahətə çox az vaxtı qalır. Proses fasiləsiz davam edir və bədən nəzarətsiz buraxılmır. Peşəkarlarla çalışan futbolçu artıq hansı həddə qədər yüklənə biləcəyini və harada dayanmalı olduğunu bilir. Bu yanaşma yaş faktorunu tədricən arxa plana keçirir. Artıq məsələ həmin yaşda bədənin hansı vəziyyətdə olmasıdır.

Bugünkü futbolu müasir idman təbabətindən ayrı təsəvvür etmək mümkün deyil. Bir vaxtlar karyeranı bitirən diz və əzələ zədələri indi düzgün reabilitasiya ilə daha idarə olunan prosesə çevrilib. Diaqnostika daha dəqiqdir, bərpa proqramları fərdidir, risklər əvvəlcədən hesablanır. Bu da oyunçuların daha uzun müddət üst səviyyədə oynamasına imkan yaradır.

### SÜRƏT DƏ ARTIR, AĞIL DA

Yaşlı futbolçuların müasir futbolda qalmasının əsas səbəblərindən biri də oyunun taktiki baxımdan inkişaf etməsidir. Bugünkü futbol artıq təkcə fiziki mübarizə üzərində qurulmur. Mövqe seçimi, oyunun gedişatını oxuma bacarığı, doğru anda doğru qərar vermək bir çox hallarda sürətdən daha həlledici amilə çevrilib.

Futbol əvvəlkindən daha sürətli, daha çox qaçılan bir oyundur. Amma eyni zamanda futbol əvvəlkindən daha çox düşünülən oyuna çevrilib. Bu da təcrübənin dəyərini artırır. Müasir oyunda nəticəni düzgün qərarlar müəyyənləşdirir. Məhz bu səbəbdən yaşlı futbolçular bu tempin içində hələ də özlərinə yer tapa bilirlər.

Müasir oyunda 40 yaşında futbolçu görmək artıq istisna hesab olunmamalıdır. Bu, yeni normadır və atletin öz fiziki formasına sistemli yanaşmasının nəticəsidir. İdman elmi, tibbi imkanlar, taktiki dəyişiklik və peşəkar həyat tərzi birlikdə futbolçuların oynama müddətini uzadıb. Azarkeşlər üçün isə bundan daha xoş reallıq yoxdur. Onlar sevdikləri futbolçuları daha uzun müddət iş başında görə bilirlər.